RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 200 (9367) 16 SENTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 15-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycanın İƏT-ə üzv dövlətlərlə əməkdaşlığı uğurla inkişaf edir

### İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının Bakı şəhərində keçirilən 4-cü iclasında səmimiyyətlə salamlayıram.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının üzv olduğu ilk təşkilatlardan biri də İƏT olmuşdur.

Sevindirici haldır ki, İƏT-in fəal üzvü kimi təşkilata üzv dövlətlərlə dostluq və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığımız beynəlxalq platformalar çərçivəsində də uğurla inkişaf edir.

Bildiyiniz kimi, Ermənistan Respublikası 30 ilə yaxın ölkəmizin 20 faiz torpaqlarını işğal altında saxlamışdır. Fürsətdən istifadə edərək, işğal zamanı və sonrakı mərhələdə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə İƏT-ə üzv ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Bu dövr ərzində orada insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, etnik təmizləmə aparılmış, həmin ərazilərimiz narkotik vasitələrin yetişdirilməsi və daşınması, habelə beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilmişdir.

2020-ci ildə bu ərazilərimiz işğaldan azad edildikdən sonra isə Azərbaycan digər çağırışlarla qarşılaşmışdır. Ölkəmizin şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr dağıdılmış, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə 4000-ə yaxın insan itkin düşmüşdür ki, onların taleyi ilə bağlı qarşı tərəf hələ də heç bir məlumat vermir. Ermənistan işğal etdiyi ərazilərimizdə bir milyona yaxın mina basdırmış, urbisid, kultursid və ekosid cinayətləri törətmişdir. İşğala son qoyulan kimi dövlətimiz bütün gücünü səfərbər edərək bu ərazilərdə geniş quruculuq və bərpa işlərinə, erməni vandalizminin nəticələrini aradan qaldırmağa başlamışdır.

Hörmətli iclas iştirakçıları, hər bir dövlətdə xalqın rifahının təmin edilməsini şərtləndirən iqtisadi inkişaf və hüquq qaydasının mövcudluğudur. Cinayətkarlıq qeyd olunan amillərə ciddi təhlükə olmaqla beynəlxalq səviyyədə mübarizənin aparılmasını tələb edən fenomendir. Bu sahədə, xüsusilə transmilli cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir.

Qlobal və regional təhdidlərin, islamofobiya meyillərinin artdığı bir zamanda İƏT-ə üzv dövlətlərin prokurorlarının qarşısında yeni vəzifələr durur. Narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, korrupsiya, kibercinayətkarlıq, çirkli pulların yuyulması və sair cinayətlər beynəlxalq terrorçuluğun maliyyə mənbəyi olmaqla bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır.

Əminəm ki, vacib məsələlərin müzakirəsi iştirakçılara beynəlxalq təcrübədən faydalanmaq imkanı verməklə insan hüquqlarının müdafiəsi və iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması istiqamətində əməkdaşlığı daha da möhkəmləndirəcəkdir.

Hesab edirəm ki, ölkəmizin İƏT-də sədrliyi dönəmində üzv dövlətlərin baş prokurorlarının bugünkü iclası regionumuzda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 sentyabr 2023-cü il*

## Azərbaycan Avrasiyada fəal aktora çevrilir




Tam müstəqil siyasəti ilə dünyada sözünə sadiq lider, ən etibarlı tərəfdaş kimi nüfuzu getdikcə yüksələn Prezident İlham Əliyev məhz ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin, hərtərəfli əlaqələrinin daha da şaxələnməsi istiqamətində çox mühüm işlər həyata keçirir. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əlaqələrinin, ticarət dövriyyəsinin son illərdə getdikcə yüksəlməsi və sentyabrın 14-də Tacikistanın paytaxtı Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünə İlham Əliyevin fəxri qonaq kimi dəvət edilməsi bunu təsdiqləyən reallıqdır. Bu, həm də Azərbaycanın dünyada artan nüfuzunun və beynəlxalq əhəmiyyətinin göstəricisidir.

Çoxplanlı əməkdaşlığın gələcək dinamikasını müəyyən edən toplantıda çıxış edən İlham Əliyev bildirdi ki, Azərbaycanla Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

→ 6

## Prokurorluq orqanlarının qanunçuluğun möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə müstəsna rolu var

### Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının Bakı şəhərində keçirilən 33-cü iclasında səmimiyyətlə salamlayıram.

Azərbaycan MDB-nin fəal üzvü olmaqla bu təşkilatın daha da möhkəmləndirilməsi istiqamətində səylərin artırılmasını vacib hesab edir. MDB çərçivəsində təhlükəsizliyin və sabitliyin qorunması, əməkdaşlığın daha da gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Hörmətli qonaqlar, qanunun aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi hər bir hüquqi dövlətin ali məqsədini təşkil edir. Bu baxımdan prokurorluq orqanlarının qanunçuluğun və hüquq qaydasının təmin edilməsində və möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə müstəsna rolu vardır.

Transmilli mütəşəkkil cinayətkarlıq hər bir dövlətin sosial, iqtisadi və siyasi sabitliyi üçün ciddi təhlükədir. Müasir dünyada qlobal və regional təhlükələrin artdığı bir zamanda MDB iştirakçı dövlətlərinin prokurorlarının qarşısında yeni və mürəkkəb çağırışlar durur. Bu təhdidlər beynəlxalq hüquq-mühafizə potensialının artırılmasını, qanunsuz şəbəkələrin zərərsizləşdirilməsi üçün birgə fəaliyyət göstərməyi, ənənəvi və yeni, o cümlədən terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, korrupsiya, kibercinayətkarlıq, çirkli pulların yuyulması və digər cinayət növlərinin qarşısının alınmasını tələb edir.

Əminəm ki, birgə səyləriniz dövrümüzün neqativ cərəyanlarına vaxtında reaksiya verməyə, dövlətlərimizin və vətəndaşlarımızın etibarlı müdafiəsini təmin etməyə imkan verəcək.

Hesab edirəm ki, MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının bugünkü iclası regionumuzda insan hüquq və azadlıqlarının etibarlı qorunmasına, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə təkan verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 sentyabr 2023-cü il*

## Heydər Əliyevin səyləri sayəsində Azərbaycanda maliyyə və audit sistemi qurulub

### "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktiki konfrans münasibətilə səmimi-qəlbdən salamlayıram.

Məhz Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu yolunda yorulmaz səyləri, polad iradəsi sayəsində Azərbaycanda şəffaf maliyyə və audit sistemi qurulmuşdur. Anadan olmasının 100 illiyini qeyd etdiyimiz bu ildə biz Ulu Öndər tərəfindən təməli qoyulmuş, dinamik inkişaf edən güclü iqtisadiyyat görürük.

Müstəqilliyimizin ilk illərində iflasa uğramış ölkə iqtisadiyyatını dirçəltməyin yeganə yolunu bazar iqtisadiyyatına keçiddə, dünya iqtisadiyyatına inteqrasiyada görən Ümummilli Lider irimiqyaslı islahatlara start vermişdir. Onun rəhbərliyi ilə korporativ idarəetmənin təkmilləşdirilməsi, azad rəqabət mühitinin dəstəklənməsi sahəsində görülən fundamental tədbirlər azad sahibkarlığın inkişafını ön plana çəkmişdir. Eyni zamanda Heydər Əliyevin uzaqgörən siyasəti, böyük dövlətçilik təcrübəsi və strateji baxışı ölkənin iqtisadi inkişafını təmin etməklə yanaşı, çoxvektorlu iqtisadi siyasətimizin əsasını qoymuş, Azərbaycana dünyada etibarlı tərəfdaş statusu qazandırmışdır.

Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaratmışdır.

Hesabatlılığın və obyektiv keyfiyyətli informasiya təminatının başlıca amili qismində şəffaflıq həm də resurslardan səmərəli və məqsədyönlü istifadənin əsası kimi dəyərləndirilməlidir. Müasir dövrümüzün qlobal çağırışlarına effektiv və çevik reaksiya verilməsi, eləcə də hazırkı dönəmdə Azərbaycan üçün ən önəmli məsələlərdən olan işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri ölkəmizdə maliyyə sektorunda aparılan islahatların daha da gücləndirilməsini, maliyyə imkanlarının səfərbər olunmasını labüd edir. Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Hörmətli konfrans iştirakçıları!

Bugünkü konfrans dayanıqlı inkişaf, hesabatlılıq, şəffaflıq məsələləri ilə bağlı qlobal gündəlikdə dayanan çağırışların və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, tədbir hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması imkanlarının müəyyənləşdirilməsi baxımından faydalı olacaq, ölkələrimizin rifahının yüksəlməsinə töhfə verəcəkdir.

Bir daha sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2023-cü il*

## Xuntanın ömrünə az qalıb

44 günlük müharibədə siyasi, diplomatik, hərbi sahədə faktiki olaraq Azərbaycan tərəfindən darmadağın edilən kapitulyant ölkə bu təxribatçı əməllərlə məşğul olmaq cürətini haradan alır? Cavab çox sadədir: bəzi riyakar xarici ölkə və qurumların erməni lobbisinin təsiri ilə İrəvana və separatçı quruma havadarlıq etmələri marionet ölkəni Azərbaycana qarşı ərazi iddiası güdmək kimi sərsəm xəyallara kökləyir. Xankəndidəki xuntaçıları, yumşaq ifadə etsək, qudurdur.

Buna görədir ki, separatçılar Laçın yolunda sərhəd-buraxılış məntəqəsi qurulmasını "blokada" adlandırırlar, Xankəndidəki sadə ermənilərin adından sui-istifadə edərək beynəlxalq aləmə yalan nağıllar danışırlar.

→ 11

## 30 ildən sonra Füzulidə ilk tədris ilinin zəngi çalınıb



→ 9

## Qeyri-qanuni rejimin tərk-silah olunması mütləqdir

Qarabağda yaşayan erməni icmasına, xüsusi status tələb edənlərə xatırladırıq ki, Azərbaycan Konstitusiyasının 12-ci maddəsinə əsasən, Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. 25-ci maddə bərabərlik hüququnu təsbit edib, dövlətin irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verdiyini vurğulayır.

→ 11

## Liviya Dövləti Prezident Şurasının Sədri zati-aliləri cənab Məhəmməd Yunis Əl-Mənfiyə

Zati-aliləri!

Ölkənizdə baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Liviya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 15 sentyabr 2023-cü il*

## "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1416; 2020, № 7, maddə 890) 1-ci hissəsində "88" rəqəmləri "98" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərmanın 1-ci hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 15 sentyabr 2023-cü il*

## Milli Məclisin Sədri Sahibə Qafarova Kuba Respublikasına işgüzar səfərə gedib





Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 15-də G77 və Çin Qrupunun Zirvə görüşündə iştirak etmək üçün Kuba Respublikasının Havana şəhərinə işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Kubanın Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Kubanın ədliyyə naziri Oskar Silvera Martinez, Azərbaycanın Kubadakı səfiri Ruslan Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində spiker Sahibə Qafarovanın G77 və Çin Qrupunun Zirvə görüşündə çıxışı nəzərdə tutulub.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; 2019, № 1, maddə 60, № 3, maddələr 411, 416, № 6, maddə 1014, № 12, maddə 1923; 2021, № 5, maddə 434; 2022, № 8, maddə 891, № 10, maddə 1134) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "893 000 000 (səkkiz yüz doxsan üç milyon)" sözləri "980 700 000 (doqquz yüz səksən milyon yeddi yüz min)" sözləri ilə əvəz edilsin.

2. Bu Fərmanın 1-ci hissəsinin icrası "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanının 1.11.6.7.1-ci yarımbəndi ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2023-cü ilin dövlət büdcəsindən Fonda ayrılan 87 700 000 (səksən yeddi milyon yeddi yüz min) manat hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

4. Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 15 sentyabr 2023-cü il*

## YAP nümayəndələri Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər





Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 105-ci ildönümü münasibətilə sentyabrın 15-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər.

Partiyadan AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər qoyulub.

Sonra YAP nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın əziz xatirəsi anılıb, abidənin önünə gül dəstələri düzülüb.

# Beynəlxalq auditorlar dayanıqlı inkişaf modelinə keçid şəraitində hesabatlılıq anlayışına yeni yanaşmanı müzakirə ediblər

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamına uyğun olaraq, Hesablama Palatası və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə sentyabrın 15-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.







Konfransın keçirilməsində əsas məqsəd dayanıqlı inkişaf modelinə keçid şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə yanaşı, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq və nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə fikir mübadiləsi aparmaq və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.

Konfransda Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA), İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) kimi nüfuzlu beynəlxalq qurumları və 11 ölkəni - Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan, Latviya, Litva, Makedoniya, İtaliya, Hindistan və Fransanı təmsil edən 150-dən çox nümayəndə iştirak edib.

Beynəlxalq elmi-praktik konfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, ali audit orqanları tərəfindən cəmiyyətə faydanın verilməsi hesabatlılıq və şəffaflıqla birbaşa əlaqəli olan 3 hədəfin yerinə yetirilməsi ilə təmin olunur. Bu hədəflərdən birincisi dövlət orqanlarının və müəssisələrinin şəffaflığını, hesabatlılığını və dürüstlüyünü gücləndirmək hədəfidir: "Bu hədəfə nail olunma auditlərə dair hesabatvermə funksiyasının yerinə yetirilməsi və verilmiş təklif və tövsiyələrin icrasının izlənilməsi əsasında ölçülür. İkinci hədəf, nümunəvi təşkilat olmaqdır. Bu, ali audit orqanları etibarlılığının öz fəaliyyətinə görə ictimaiyyət qarşısında cavabdeh kimi görünməkdən asılıdır. Bunun mümkün olması üçün ali audit orqanları nümunəvi olmalıdırlar. Üçüncü hədəf, vətəndaşlar və maraqlı tərəflər üçün daim aktual olmaqdan ibarətdir. Ali audit orqanlarının müasir dövrdə dövlət idarəetməsinin gücləndirilməsində, hesabatlılığın artırılmasında, dövlət vəsaitlərinin idarə edilməsinə nəzarətdə oynadıqları rol onlara maraqlı tərəflərdən tələblərin və gözləntilərin çox olmasına səbəb olur".

Auditlərin nəticələri ilə bağlı ictimaiyyətə açıqladığımız məlumatlarda son illərdə əhəmiyyətli artım var. 2021-ci ildə portfel üzrə keçirilmiş auditlərin 54 faizi açıqlanırdısa, 2022-ci ildə bu 60 faizə yüksəlib: "2023-cü il üzrə bu nisbətin artırılmasını hədəfləyirik. Hesab edirik ki, qurumların auditin nəticəsi olaraq görülən işlər barədə ictimaiyyəti məlumatlandırmağı bu hədəfi daha nəticəli edə bilər", - deyə V.Gülməmmədov qeyd edib.

Auditorlar Palatasının sədri Vahid Novruzov diqqətə çatdırıb ki, aparılan hesablamalara görə, Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq dünyada ÜDM-in 1,5-4 faizi qədər resurs tələb edir. Məhz biznes strukturlarının dayanıqlı inkişaf sahəsində dövlət təşəbbüslərinə cəlb edilməsinin vacibliyi də bununla izah edilir. DİM-də informasiya əlçatanlığı, məlumatların toplanması, monitorinqi və hesabatlılıq dayanıqlı inkişaf üçün ən mühüm elementlər kimi dəyərləndirilir.

O qeyd edib ki, ümumiyyətlə isə, IFAC-ın məlumatına görə, 17 DİM-in 8-i mühasibat uçotu, hesabatlılıqla və o cümlədən auditlə birbaşa əlaqədardır. Başqa sözlə, mühasiblər və auditorlar DİM-in reallaşmasında mühüm rola malikdirlər. Bununla yanaşı, mühasibat uçotunun və auditin də korporativ dayanıqlı inkişafın yeni tələblərinə uyğun olaraq transformasiyası bu günün tələbləri sırasındadır. Məhz mühasibat uçotu və auditin birbaşa təsiri ilə təhsilin keyfiyyəti, gender bərabərliyi, ləyaqətli əmək və iqtisadi artım, məsuliyyətli istehlak və istehsal, bərabərsizliyin azaldılması, təhlükəsizlik, iqlim dəyişikliyi, ekosistemin qorunması, sülh və ədalət, güclü institutların yaradılması və əməkdaşlıq kimi DİM reallaşa bilər. Aparılan tədqiqatlar onu da göstərir ki, mühasiblər və auditorlar - Maliyyə hesabatları təqdim və təsdiq edilərkən DİM üzrə mövcud durum barədə öz mülahizələrini təqdim etmək, şirkətləri DİM-in şərtlərini yerinə yetirməyə həvəsləndirmək və təşviq etmək, ətraf mühitin mühafizəsinə və sosial məsuliyyətə dair idarəetmənin məlumat bazasını formalaşdırmaq kimi məsələlərin həllində vacib rola malikdirlər.

"DİM ölkənin 2030-cu ilədək milli inkişaf prioritetlərində nəzərə alınmışdır. Belə ki, Prezidentin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan 2030: iqtisadi inkişafa dair Milli Prioritetlərdə növbəti onillikdə reallaşdırılmalı olan beş milli prioritetin, demək olar ki, hamısı dayanıqlı inkişafın təminatına yönləndirilib. Milli prioritetlərin realizasiyası məqsədilə hazırlanmış "2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası" DİM-in həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir. Digər mühüm nailiyyət kimi 2023-2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə AMB tərəfindən hazırlanmış Yol Xəritəsini göstərmək olar", - deyə palata sədri qeyd edib.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov deyib ki, hazırda 112 qlobal Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəricisindən 81-i üzrə məlumatları Dövlət Statistika Komitəsi, qalan 31-i üzrə məlumatları isə digər dövlət qurumları hazırlayır: "Bu məlumatlar Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat, Kənd Təsərrüfatı, Fövqəladə Hallar, Ədliyyə, Daxili İşlər, Xarici İşlər, Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Baş Prokurorluq və digər dövlət qurumları tərəfindən hazırlanaraq Dövlət Statistika Komitəsinə təqdim edilir. DİM göstəriciləri üzrə məlumat istehsalında əsasən ənənəvi məlumat mənbələrindən istifadə olunsa da, hazırda beynəlxalq aləmdə məlumatların alternativ mənbələr əsasında toplanılması praktikası getdikcə genişlənir və inkişaf etmiş bir çox ölkələrdə bəzi DİM göstəricilərinin monitorinqində peyk məlumatlarından istifadə edilir. Son 2 ildə ölkəmizdə də belə təcrübə tətbiq olunub. 2021-ci ildə "Azərkosmos"la aparılan işlər nəticəsində 15.4.2-ci dayanıqlı inkişaf məqsədi, yəni dağların bitki örtüyü indeksi üzrə məlumatların bu yolla əldə olunması təmin edilib".

Vurğulanıb ki, Dayanıqlı İnkişaf Məqsədləri üzrə qlobal göstəricilər sistemində əks edilib, o cümlədən DİM üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Prezidentin 2016-cı il 6 oktyabr tarixli Fərmanından irəli gələn vəzifələrin icrası olaraq milli prioritet kimi seçilmiş 119 göstərici üzrə məlumatların mənbəyi və onların hazırolma müddəti müəyyənləşdirilib. Rəsmi statistikada mövcud olmayan göstəricilər üzrə məlumatların aidiyyəti dövlət orqanları ilə birgə əldə edilməsi üçün müəyyən işlər görülüb, Dİ statistikanın təşkili ilə bağlı digər tədbirlər həyata keçirilib.

"Dünyada baş verən proseslər Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına kifayət qədər mənfi təsir göstərir. "BMT platformalarında aparılan müzakirələrdə də hər kəsi düşündürən bir sual var. 2023-cü ildə 15 illik dövrü əhatə edən dayanıqlı inkişaf məqsədlərinin yarısını qət edə bilmişik? Bu sualın cavabı, təəssüf ki, neqativdir. Çünki pandemiyanın, digər siyasi proseslərin yaratdığı fəsadlar, iqtisadi sferada baş verən neqativ şoklar dayanıqlı inkişaf məqsədlərinin icrası prosesinə hazırda da mənfi təsirini göstərir", - deyə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov qeyd edib.

Şöbə müdiri bildirib ki, BMT-nin hesablamalarına görə, mövcud tendensiyalar davam edərsə, qarşıdakı illərdə təxminən 600 milyon insanın ifrat yoxsulluq həddinə düşmə riski var: "Bu vəziyyətin yaranması ifrat yoxsulluq həddində yaşayan insanların sayının artımına təsir edəcək, səhiyyə, təhsil və sosial xidmətlərə çıxış imkanlarında məhdudiyyətlərin yaranması ilə nəticələnəcək. Baş verən digər proseslərdən biri yüksək inflyasiyanın qlobal olaraq iqtisadi riskləri artırmasıdır. Bu risklər xüsusilə sosial cəhətdən həssas əhali qrupunun gəlir əlçatanlığının azalması ilə nəticələnir. Bütün bu göstəricilər dayanıqlı inkişaf məqsədlərinin icrasına öz neqativ təsirlərini göstərir".

Konfrans çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində təcrübələr müzakirə edilib, bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılması şərh olunub, yaşıl iqtisadiyyat, sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsi sahəsində müzakirələr aparılıb.

Sentyabrın 16-da iştirakçıların Heydər Əliyev Mərkəzinə ziyarəti, xarici ölkələrin audit və mühasibat qurumlarının nümayəndələri ilə auditin normativ hüquqi bazasına, metodiki təminatına, təşkili və tənzimlənməsinə dair təcrübə mübadiləsi və Bakı şəhəri ilə tanışlıq nəzərdə tutulub.

# Heydər Əliyev Fondunun inşa etdiyi 500-cü məktəb istifadəyə verildi

Yeni tədris ilində Heydər Əliyev Fondunun təhsil sahəsindəki layihələrindən biri də Şamaxı rayonunu əhatə edib. Fondun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunub. Bu il Bilik Günündə Heydər Əliyev Fondunun 500-cü məktəbi Şamaxı rayonunun Göylər kəndində şagird və müəllimlərin ixtiyarına verilib.













AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Rövşən Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldular.

Anar Ələkbərov şagirdlər və valideynlərlə də görüşdü, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın salamlarını çatdırdı, yeni məktəb binasında şagirdlərin yaxşı oxumaları üçün hər cür şərait yaradıldığını bildirdi. O, şagirdlərə yaradılan bu şəraitdən istifadə edərək, yaxşı oxumağı tövsiyə etdi.

1975-ci ildə inşa olunan Göylər kənd 1 saylı tam orta məktəbin binası ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondunun dəstəyi ilə yanvar ayından başlanan tikinti işləri nəticəsində 624 şagird yerlik yeni məktəb binası inşa olunub. Üçmərtəbəli 4 korpusdan ibarət bina zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib. Təhsil müəssisəsində zəngin kitabxana, müxtəlif tədbirlərin keçirilməsi üçün akt zalı, uşaqların fiziki cəhətdən sağlam böyüməsi və idmana həvəsləndirilməsi üçün həm məktəbin daxilində idman zalı, həm də həyətyanı ərazidə açıq idman meydançası qurulub. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Məktəbin direktoru Əliyusif Qəniyev AZƏRTAC-a açıqlamasında bildirdi ki, məktəb binası yararsız olduğundan şagirdlərin yüksək səviyyədə təhsillə təmin olunmasında bəzi çətinliklər yaşanırdı. Lakin Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan yeni bina bütün bu problemləri arxada qoyub: "Heydər Əliyev Fonduna, onun rəhbəri Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk ki, bizə, şagirdlərə belə gözəl məktəb hədiyyə etdi. Hazırda birinci sinfə 28 şagirdimiz qeydiyyata alınıb. Ümumiyyətlə, bizim məktəb həmişə rayonumuzda qabaqcıl məktəblərdən olub. Keçən il 15, bu il isə 10 şagirdimiz qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə qəbul olunub".

Əliyusif müəllimlə söhbətimizdən sonra 1-ci sinif şagirdi Maral Ümidovaya yaxınlaşırıq. Sevinclidir, əlində gül ilk dəfə sinif otağına qədəm qoyacağı o anı gözləyir. "Çox sevinirəm. Yeni məktəbimiz var, çox gözəldir", - deyir.

Bilik Günündə valideynlər də məktəbin həyətinə toplaşmışdılar. Onlar da belə gözəl məktəb binasının inşa olunmasına görə minnətdarlıqla söz açırdılar. Onlardan biri də Bəxtilə Mustafayevadır. Bəxtilə nənənin sevincinin hədd-hüdudu yoxdur. Deyir ki, 4-cü sinifdə oxuyan nəvəsi Üzeyiri məktəbə gətirib: "Sevinirəm ki, uşaqlarımız üçün belə gözəl, yeni məktəb binası tikilib. Əvvəlki bina yararsız idi. Sağ olsun Heydər Əliyev Fondu, onun rəhbərliyi, bizim uşaqlar üçün belə gözəl şərait yaradıb. İnşallah, uşaqlarımız da bu qayğıya yaxşı oxumaqla cavab verərlər, ali məktəblərə qəbul olunarlar".

Binanın girişində şagirdləri Ulu Öndərimizin bu sözləri qarşılayır: "Bizim borcumuz, vəzifəmiz şərait yaratmaqdan ibarətdir ki, hər bir gənc, hər bir uşaq istedadını inkişaf etdirə bilsin, ona imkan yaransın". Azərbaycanda Ulu Öndərin təməlini qoyduğu təhsilin inkişaf etdirilməsi, keyfiyyətinin daha da artırılması siyasəti dövlətin qarşısında duran prioritet məsələlərdən biridir və bu gün uğurla həyata keçirilir. Paytaxt və regionlarda təhsil sisteminin müasir tələblərə cavab verməsi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin artırılması istiqamətində görülən işlərə Heydər Əliyev Fondu tərəfindən əhəmiyyətli dəstək göstərilir. Fondun fəaliyyətə başladığı gündən qarşısına qoyduğu və uğurla reallaşdırdığı ilk layihələrdən biri məhz bu sahəyə aid olub. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində son illər ərzində paytaxtda və bölgələrdə köhnə məktəb binalarının müasirləşdirilməsi, yeni məktəblərin inşası sahəsində çoxsaylı işlər görülüb. Heydər Əliyev Fondunun dəstəyi və təşəbbüsü ilə ölkədə məktəb tikintisi, məktəbəqədər təhsilin inkişafı ardıcıl xarakter alıb.



# Heydər Əliyev Fondunun Göyçay, İsmayıllı və Qəbələdə inşa etdiyi yeni məktəb binalarında ilk dərs günü













Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq yeni təhsil ocaqları inşa olunaraq və ya əsaslı bərpa edilərək istifadəyə verilir. Bu baxımdan 2023-2024-cü tədris ili də istisna olmayıb.

Həmişə olduğu kimi, fondun müəllim və şagirdlərə yeni tədris ili hədiyyəsi paytaxtla yanaşı, Azərbaycanın regionlarını da əhatə edir. Yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə müəllim və şagirdlərin istifadəsinə verilir. Tədris ili ərzində Heydər Əliyev Fondu tərəfindən inşa və təmir edilən daha 10 məktəbin açılışı nəzərdə tutulur.

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, elm və təhsil naziri Emin Əmrullayev və ictimaiyyət nümayəndələri Göyçay, İsmayıllı və Qəbələdə yeni istifadəyə verilən təhsil müəssisələrinin açılışında iştirak ediblər.

## Göyçay şəhər 6 saylı tam orta məktəbin binası əsaslı təmir-bərpa olunub

1969-cu ildə inşa olunan Məhəmməd Füzuli adına Göyçay şəhər 6 saylı tam orta məktəbin binası istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən 2023-cü ilin yanvar ayından burada əsaslı təmir-bərpa işlərinə başlanılmışdı. Qısa zamanda görülən işlər nəticəsində bir korpusu 3 mərtəbə, digər korpusları 2 mərtəbə olmaqla, 4 korpusdan ibarət 624 şagird yerlik təhsil müəssisəsi istifadəyə verilib. Məktəbdə 30 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası yaradılıb. Təhsil müəssisəsi zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təmin edilib, məktəbin həyətyanı ərazisi yaşıllaşdırılıb, müasir işıqlandırma sistemləri qurulub.

"1969-cu ildən istifadədə olan təhsil ocağımız Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir-bərpa edilib. Bütün fənn kabinetləri müasir avadanlıqlarla təchiz edilib. Həm müəllimlərimizin dərsləri yüksək səviyyədə tədris etməsi, həm də şagirdlərimizin yaxşı oxuması üçün hər cür şərait yaradılıb".

Bunu açıqlamasında Göyçay şəhər 6 saylı tam orta məktəbin direktoru Yeganə Mehdiyeva deyib. O qeyd edib ki, 500 şagird yerlik məktəb binası illərdir yararsız vəziyyətdə olduğu üçün şagirdlər qonşu məktəblərə gedirdilər. "Artıq bizim məktəbimizin binası da əsaslı təmir olunub. İndi şagirdlərimiz doğma məktəblərində oxuyacaqlar. Buna görə Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk", - deyə o əlavə edib.

Qeyd edək ki, Heydər Əliyev Fondu bu günədək Göyçay şəhərində, eləcə də Göyçayın Bəydövül, Kürdşaban, Alpout kəndlərində məktəb, körpələr evi və uşaq bağçalarının tikintisini həyata keçirib.

## İsmayıllıda 280 şagird yerlik 4 nömrəli tam orta məktəb üçün yeni bina tikilib

Heydər Əliyev Fondunun təhsil sahəsində layihələri ötən müddətdə İsmayıllı rayonunu da əhatə edib. Bu günədək fond tərəfindən İsmayıllı şəhərində, eləcə də rayonun müxtəlif kəndlərində orta məktəb, uşaq bağçaları istifadəyə verilib. Heydər Əliyev Fondunun yeni tədris ilində İsmayıllı rayonunda təhsil sahəsində gördüyü işlərə biri də əlavə olunub. Fondun təşəbbüsü ilə burada 280 şagird yerlik 4 saylı tam orta məktəb üçün yeni bina tikilib. 1979-cu ildə inşa olunmuş İsmayıllı şəhər 4 saylı tam orta məktəb ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən bu ilin yanvar ayında başlanılan tikinti işləri nəticəsində 3 korpusdan ibarət təhsil ocağı inşa olunub.

Məktəb zəruri avadanlıq, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib. İdman zalı ilə yanaşı, açıq idman meydançası da istifadəyə verilib. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

## Qəbələnin Nic qəsəbəsində 1 və 4 nömrəli tam orta məktəblərin yeni binaları tədris ilinə hazırdır

Fondun təhsillə bağlı digər layihəsi isə Qəbələ rayonunun payına düşür. Qəbələnin Nic qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1 nömrəli tam orta məktəbin binası inşa edilərək istifadəyə verilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2021-ci ilin may ayında Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində Fondun apardığı bərpa işləri ilə tanışlığı zamanı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili dövlət başçısına burada 150 yaşı olan məktəbin təmiri ilə bağlı müraciət etmişdi. Bununla əlaqədar olaraq Heydər Əliyev Fondu tərəfindən 1 nömrəli məktəb üçün yeni binanın inşasına başlanılmışdı. Onu da qeyd edək ki, bu, Heydər Əliyev Fondunun Nic qəsəbəsində təhsillə bağlı ilk layihəsi deyil. Belə ki, qəsəbədə 2 nömrəli tam orta məktəb də fondun təşəbbüsü ilə inşa olunub.

2023-2024-cü tədris ilində istifadəyə verilən 2 mərtəbəli 200 şagird yerlik 1 nömrəli tam orta məktəbdəki fənn kabinetləri və laboratoriyaları lazımi avadanlıqla və əyani vəsaitlərlə təchiz edilib. Məktəbdə kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası şagird və müəllimlərin istifadəsinə verilib. Təhsil ocağının həyətində abadlıq və yaşıllaşdırma işləri görülüb.

"2021-ci il mayın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsində olarkən Alban-Udi Xristian Dini İcması adından Prezidentimizdən qəsəbədəki 150 yaşı olan məktəbin təmiri ilə bağlı müraciət etmişdik. Müraciətimizdən sonra dövlətimizin başçısı məktəbin həyətinə gəldi, vəziyyətlə yerində tanış oldu və yeni məktəb binasının tikintisi ilə bağlı tapşırığını verdi. Çox sevinirik ki, qısa müddət ərzində Heydər Əliyev Fondu tərəfindən qəsəbəmizdə müasir standartlara uyğun, hər cür şəraiti olan yeni məktəb binası tikilib istifadəyə verilib. Bu diqqət və qayğıya görə sakinlər və icma üzvləri adından Prezidentimizə, birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk".

Bu sözləri açıqlamasında Alban Udi Xristian Dini İcmasının sədri Robert Mobili Nic qəsəbəsindəki 1 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində deyib.

İcma sədri bildirib ki, Azərbaycan xalqının tolerantlığı, multikultural dəyərləri barədə danışanda, ilk növbədə, Qəbələ rayonunun Nic qəsəbəsi nümunə olaraq göstərilir. Hazırda qəsəbədə 7 minə yaxın sakin yaşayır. Onların 3,5 minini udilər, qalanını azərbaycanlılar və digər xalqların nümayəndələri təşkil edirlər.

Robert Mobili deyib: "Qəsəbəmizdə fərqli mədəniyyətlərin, dinlərin nümayəndələri dinc, mehriban şəraitdə birgə yaşayırlar. Hazırda qəsəbədə 5 məktəb fəaliyyət göstərir. Bu məktəblərin ikisində tədris Azərbaycan, üçündə rus dilindədir. Qəsəbədə olan məbədlər, dini abidələr, mədəniyyət ocaqları dövlətimiz tərəfindən qorunur, bərpa olunur. Qədim məbədlərimizin bərpasında Heydər Əliyev Fondu tərəfindən bizə həmişə dəstək olub, layihələr həyata keçirib. Bütün bu diqqətə görə icma üzvləri adından Heydər Əliyev Fondunun rəhbərliyinə bir daha təşəkkürümüzü bildiririk".

"Bir valideyn kimi çox sevinirəm. Qürur duyuram ki, övladlarım belə gözəl məktəbdə təhsil alacaqlar".

Bu sözləri açıqlamasında Qəbələ rayonu Nic qəsəbəsinin sakini Angelina Adari 1 nömrəli tam orta məktəbin yeni binasının açılışında deyib.

Məktəb binasının tikintisinə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığını bildirən valideyn deyib: "İnşallah, övladlarımız hər cür şəraiti olan yeni məktəbdə daha yaxşı oxuyacaq, öz nəticələri ilə hamını sevindirəcəklər. Bu məktəb yeni dərs ilində şagirdlərə, müəllimlərə, valideynlərə çox gözəl hədiyyədir".

Nic qəsəbəsində 4 nömrəli tam orta məktəb üçün 360 şagird yerlik yeni binanın tikintisi də tamamlanıb.

Azərbaycan dilində olmaqla, ibtidai məktəb kimi 1969-cu ildən fəaliyyətə başlayan təhsil ocağı 1971-ci ildə əsas məktəbə çevrilib. 1990-cı ildən orta məktəb kimi fəaliyyətini davam etdirir.

Qeyd edək ki, məktəbin yeni binası Prezident İlham Əliyevin sərəncamı ilə inşa olunub.

Məktəbin yeni binasında 42 otaq, o cümlədən 3 laboratoriya, 1 texnologiya, 1 kompüter otağı, akt və idman zalları, kitabxana, yeməkxana var.

## 2004-cü ildən indiyədək Heydər Əliyev Fondu tərəfindən 500 məktəb binası inşa və ya təmir olunaraq istifadəyə verilib

Beləliklə, Heydər Əliyev Fondunun dəstəyi ilə yeni təhsil ocaqlarının istifadəyə verilməsi ölkədə gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına daha bir töhfədir.

Yarandığı gündən təhsil sahəsinə xüsusi həssaslıqla yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqaməti elan edən fond "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramların icrası ilə təhsil sahəsinə öz dəstəyini göstərir, müasir standartlara cavab verən təhsil kompleksləri yaradır, tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur. Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələr çərçivəsində 2004-cü ildən etibarən 500 məktəb inşa və təmir olunaraq istifadəyə verilib.

Fondun təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılmasına, məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə verdiyi töhfələr bu il də yüzlərlə şagirdin, müəllim və valideynin sevincinə səbəb olub.

*AZƏRTAC*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 321 QƏRAR Bakı şəhəri, 13 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 652-VIQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 1989 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 224 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 12.3.5-ci yarımbənddə "şəxslər haqqında arayış" sözləri "şəxslərin soyadı, adı və ata adı haqqında elektron sənəd" sözləri ilə əvəz edilsin.

2. 12.3.6-cı yarımbəndə "arayışlar" sözündən sonra "(məlumatlar)" sözü əlavə edilsin.

3. 12.3.7-ci yarımbənddə "mülkiyyət hüquqlarının" sözləri "hüquqların" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 322 QƏRAR Bakı şəhəri, 13 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli 1893 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 227; 2011, № 5, maddə 449; 2018, № 11, maddə 2448; 2021, № 10, maddə 1193) ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I hissə üzrə:

1.1. 1.3-cü bənddə "onun müddəalarına uyğun müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş," sözləri "qanunvericiliyə uyğun qəbul edilmiş digər" sözləri ilə əvəz edilsin;

1.2. 1.4-cü bəndin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amilləri olan iş yerlərinin müəyyən edilərək onların həmin iş yerlərinə buraxılmaması və digər yüngül işlərdə çalışmasının təmin edilməsi.".

2. Aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

"3.6. İş yerlərinin attestasiyasının nəticələrinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"na uyğun olaraq hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan edilən iş yeri müəyyən edildikdə "Əmək şəraiti üzrə iş yerinin attestasiyası xəritəsi"nin "Əmək şəraitinə görə güzəştlər" hissəsində bu iş yerlərində hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqinin qadağan edilməsi və yüngül işə keçirilməsi barədə müvafiq qeyd aparılır.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 323 QƏRAR Bakı şəhəri, 13 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli, "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli, "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2012-ci il 30 dekabr tarixli 330 nömrəli, "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 5 noyabr tarixli 320 nömrəli, "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2014-cü il 30 may tarixli 171 nömrəli və "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 27 dekabr tarixli 526 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 825; 2010, № 10, maddə 909) ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Giriş" hissəsinin on birinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

1.2. "Ana və uşaqların qorunması üzrə Tədbirlər Proqramının həyata keçirilməsi planı"nın 20-ci sətrinin "Tədbirlərin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000; 2017, № 4, maddə 613, № 12 (II kitab), maddə 2515; 2018, № 5, maddə 1148, № 11, maddə 2430; 2019, № 8, maddə 1472; 2020, № 8, maddə 1121, № 11, maddə 1410; 2022, № 4, maddə 404, № 9, maddə 1099, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 6.17-ci bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli 330 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1392; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1-ci bənddə "kütləvi informasiya vasitələrində, ərazi üzrə yerli kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. 7.5-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457; 2015, № 12, maddə 1584; 2016, № 11, maddə 1976; 2019, № 3, maddə 514, № 7, maddə 1318; 2020, № 11, maddə 1410; 2021, № 3, maddə 273, № 10, maddə 1163; 2022, № 7, maddə 819, № 9, maddə 1100, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın 3.1.8-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media məhsulları" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 595, № 12, maddə 1654; 2017, № 4, maddə 615) ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.8-ci, 2.18-ci, 2.19-cu, 2.21-ci və 2.22-ci bəndlərində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixli 526 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2242; 2019, № 11, maddə 1861) ilə təsdiq edilmiş "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.6-cı yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 324 QƏRAR Bakı şəhəri, 13 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2003-cü il 2 iyun tarixli 75 nömrəli, "Ekoloji təhsil və maarifləndirilməsi üzrə Sahələrarası Komissiya yaradılması və Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2003-cü il 22 sentyabr tarixli 120 nömrəli, "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2005-ci il 30 dekabr tarixli 247 nömrəli, "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 26 noyabr tarixli 277 nömrəli, "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 8 iyun tarixli 218 nömrəli, "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 19 mart tarixli 118 nömrəli və "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2022-ci il 14 oktyabr tarixli 393 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 818-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 344; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın 4.1-ci və 4.2-ci bəndlərində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 22 sentyabr tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 528; 2006, № 7, maddə 647; 2014, № 1, maddə 69, № 6, maddə 736; 2016, № 5, maddə 955; 2019, № 3, maddə 529; 2021, № 9, maddə 1085) ilə təsdiq edilmiş "Ekoloji təhsil və maarifləndirmə üzrə Sahələrarası Komissiya haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbənddə "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin;

2.2. 4.2-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1246; 2014, № 7, maddə 933, № 12, maddə 1679) ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın 2.10.8-ci yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1214) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin 1.1-ci bəndində və 2.1.8-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "media məhsullarında" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1196; 2019, № 7, maddə 1324; 2020, № 2, maddə 211) ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın 2.9-cu bəndinin ikinci cümləsində "kütləvi, o cümlədən" sözləri "mediada, habelə" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 552) ilə təsdiq edilmiş "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin 8.4.2-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 oktyabr tarixli 393 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1219) ilə təsdiq edilmiş "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqinin aparılması Qaydaları"nın 4.6.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 325

## QƏRAR

Bakı şəhəri, 13 sentyabr 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 15 mart tarixli 40 nömrəli, “Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamənin, Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydasının, Qeyri-dövlət arxiv fondlarının mühafizəsi üzrə Qaydaların, Aşkar edilmiş və ya tapılmış arxiv sənədlərini aşkar edən və ya tapan şəxsləri mükafatlandırma Qaydasının və Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması Qaydasının təsdiq edilməsi haqqında” 2000-ci il 6 mart tarixli 32 nömrəli, “Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydalarının təsdiq edilməsi haqqında” 2000-ci il 1 may tarixli 78 nömrəli, “Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2017-ci il 12 may tarixli 205 nömrəli, “Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları”nın təsdiq edilməsi barədə” 2018-ci il 4 dekabr tarixli 522 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli arxiv fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 816-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 4, maddə 386; 2006, № 5, maddə 463, № 9, maddə 822; 2008, № 2, maddə 125, № 8, maddə 782; 2011, № 5, maddə 455; 2012, № 5, maddə 487, № 7, maddə 776, № 9, maddə 921; 2013, № 5, maddə 575, № 8, maddə 1021, № 11, maddə 1462; 2015, № 4, maddələr 463, 467; 2016, № 2 (II kitab), maddə 386, № 4, maddə 810; 2017, № 4, maddələr 620, 645; 2018, № 5, maddə 1119, № 10, maddələr 2166, 2175, № 11, maddə 2442; 2021, № 7, maddə 881; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 may tarixli 156 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasna-mə"nin 2.2-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 32 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 221; 2003, № 6, maddə 342; 2004, № 4, maddə 287; 2005, № 1, maddə 49, № 2, maddə 122; 2006, № 2, maddə 185, № 10, maddə 903; 2010, № 3, maddə 263, № 12, maddə 1123; 2015, № 10, maddə 1223; 2016, № 9, maddə 1585; 2018, № 9, maddə 1949, № 12 (II kitab), maddə 2732; 2023, № 2, maddə 310) ilə təsdiq edilmiş "Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamə"nin 4.5-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 359; 2005, № 1, maddə 49, № 9, maddə 855; 2008, № 2, maddə 108; 2015, № 1, maddə 67; 2016, № 12, maddə 2225; 2018, № 4, maddə 801; 2019, № 12, maddə 2082; 2021, № 5, maddə 520) ilə təsdiq edilmiş "Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydaları"nın 2.2-ci bəndinin üçüncü abzasında "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 976) ilə təsdiq edilmiş "Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları"nın 2.13-cü bəndinin birinci cümləsində "kütləvi informasiya vasitələri vasitəsilə" sözləri "media ilə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725; 2020, № 11, maddə 1408; 2022, № 4, maddə 380, № 11, maddə 1347, № 12, maddə 1534) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 16.1-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

Bakı şəhəri, 14 sentyabr 2023-cü il

### “Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası”nın təsdiq edilməsi və “Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 19 avqust tarixli 310 nömrəli Qərarının ləğv edilməsi haqqında

"Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2008 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 19 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunve-ricilik Toplusu, 2016, № 8, maddə 1447; 2017, № 8, maddə 1630; 2018, № 10, maddə 2157) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli 326 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası" (bundan sonra - Qayda) "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 5.8-ci maddəsinə və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 2002-ci il 20 dekabr tarixli 1452 nömrəli, 2006-cı il 14 oktyabr tarixli 1718 nömrəli və 2015-ci il 20 iyul tarixli 2231 nömrəli qətnamələrinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qayda terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində nəzərdə tutulan fiziki şəxslərin və qurumların (bundan sonra - fiziki şəxslər və qurumlar) dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi qaydasını müəyyən edir.

### 2. Dondurulmuş aktivlərdən istifadənin əsasları

2.1. Fiziki şəxslər və qurumlar tərəfindən dondurulmuş aktivlərdən istifadəyə dair icazə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - Dövlət Təhlükəsizliyi Xidməti) tərəfindən verilir.

2.2. Dövlət Təhlükəsizliyi Xidməti ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxslərin və qurumların yazılı müraciətindən sonra 7 (yeddi) iş günü müddətində, beynəlxalq siyahıya daxil edilmiş fiziki şəxslərin və qurumların yazılı müraciətindən sonra bu Qaydanın 3.3-cü və 3.4-cü bəndlərində qeyd olunan müddətdə gözlənilməz xərclərə və aşağıdakı zəruri xərclərə ehtiyacın ödənilməsini təmin etmək məqsədilə dondurulmuş aktivlərdən istifadəyə dair qərar qəbul edir:

2.2.1. vergi və rüsumlar;

2.2.2. sığorta ödənişləri (həyatın yığım sığortası istisna olmaqla);

2.2.3. kommunal xərclər (qaz, su, işıqdan istifadə xərcləri, mənzil-təsərrüfat xərcləri, telekommunikasiya (telefon rabitəsi, internet) xərcləri);

2.2.4. maliyyə xidmətlərindən istifadə ilə əlaqədar xidmət haqları;

2.2.5. qida, tibb xidmətləri, dərman xərcləri, icarə və kirayə haqları, ipoteka kreditləri üzrə ödənişlər;

2.2.6. peşəkar fəaliyyət ilə əlaqədar üzvlük haqları və hüquqi xidmətlərin göstərilməsi xərclərinin ödənilməsi üçün zəruri olan ödənişlər;

2.2.7. dondurulmuş əmlakın saxlanılması üçün ödənişlər.

2.3. Fiziki şəxslərin və qurumların yazılı müraciətlərində bu Qaydanın 3.3.1-ci və 3.3.3-3.3.11-ci yarımbəndlərində qeyd olunan məlumatlar nəzərdə tutulmalıdır.

2.4. Dövlət Təhlükəsizliyi Xidməti müraciətin qəbul edildiyi tarixdən 1 (bir) iş günü müddətində fiziki şəxsləri və ya qurumları müraciətin qəbul edilməsi və bu Qaydada nəzərdə tutulan prosedur barədə məlumatlandırmalıdır.

### 3. Dondurulmuş aktivlərdən istifadəyə dair icazənin verilməsi qaydası

3.1. Dondurulmuş aktivlərdən istifadəyə dair icazə istifadə olunacaq vəsaitin terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə yönəldilməsi riski tam aradan qaldırıldıqdan sonra verilir.

3.2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış Sanksiya Komitələri tərəfindən müəyyən edilmiş meyarlar əsasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti ilə beynəlxalq siyahıya daxil edilmiş fiziki şəxslərin və qurumların zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi məqsədilə dondurulmuş aktivlərindən istifadəyə dair Dövlət Təhlükəsizliyi Xidmətinin qərarı müvafiq Komitənin rəyi nəzərə alınmaqla qəbul edilir.

3.3. Rəyin alınması üçün Dövlət Təhlükəsizliyi Xidməti müraciətin qəbul edildiyi tarixdən etibarən 1 (bir) iş günü müddətində həmin müraciəti Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti Sanksiya Komitələrinə göndərilməsi məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi isə 2 (iki) iş günü müddətində həmin müraciət əsasında Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti Sanksiya Komitələrinə sorğu ünvanlayır. Sorğuda aşağıdakılar nəzərdə tutulmalıdır:

3.3.1. fiziki şəxsin və ya qurumun adı və ünvanı;

3.3.2. fiziki şəxsin və ya qurumun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti Sanksiya Komitələri tərəfindən müəyyən edilmiş siyahıda daimi istinad nömrəsi;

3.3.3. fiziki şəxsin və ya qurumun hesabı barədə məlumatlar (maliyyə institutunun adı və ünvanı, hesab nömrəsi);

3.3.4. ödənişin məqsədi, zəruri və gözlənilməz xərclərə ehtiyacın əsaslandırılması;

3.3.5. bu Qaydanın 2.2-si bəndində nəzərdə tutulmuş zəruri xərclərin növü və ya gözlənilməz xərclərin mahiyyəti;

3.3.6. ödənişlərin məbləği və sayı;

3.3.7. ödənişlərin başlandığı və bitdiyi tarix;

3.3.8. ödənişin həyata keçirilməsi forması;

3.3.9. istifadə olunacaq dondurulmuş aktiv barədə məlumat (aktivin növü, olduğu yeri, təsviri və s.);

3.3.10. vəsaiti qəbul edən tərəfin adı və ünvanı;

3.3.11. ödənişdən tutulmalar.

3.4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti Sanksiya Komitələrinin rəyini daxil olduqdan sonra 2 (iki) iş günü müddətində Dövlət Təhlükəsizliyi Xidmətinə göndərir. Dövlət Təhlükəsizliyi Xidməti bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş halda, həmçinin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti Sanksiya Komitələrinin mənfi rəyi olmadığı təqdirdə, həmin rəyin Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmasından sonra 1 (bir) iş günü müddətində aktivləri dondurulmuş fiziki şəxslərin və qurumların aktivlərindən istifadəyə dair qərar qəbul edir.

3.5. Dondurulmuş hesabdakı qalıq vəsait zəruri və gözlənilməz xərclərə ehtiyacları ödəmək üçün kifayət etmədiyi təqdirdə, aşağıdakı aktivlərdən istifadə olunmasına icazə verilə bilər:

3.5.1. dondurulmuş hesablara həmin hesablar üzrə ediləcək hər hansı faiz və ya digər gəlirlər;

3.5.2. hesablar dondurulan dövrədək olan müddətdə bağlanılmış əqdlər, razılaşmalar və ya öhdəliklər üzrə ödəmələr;

3.5.3. fiziki şəxslərin və qurumların xeyrinə ediləcək hər hansı digər ödənişlər.

3.6. Dövlət Təhlükəsizliyi Xidməti bu Qaydanın 2.2-ci və 3.4-cü bəndlərində nəzərdə tutulan qərar barədə müraciət edən fiziki şəxslərə və qurumlara dərhal məlumat verir.

3.7. Fiziki şəxslər və qurumlar zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadəyə dair Dövlət Təhlükəsizliyi Xidmətinin qərarından inzibati və məhkəmə qaydasında şikayət verə bilərlər.

### 4. Dondurulmuş aktivlərdən istifadəyə dair qərarın icrası

4.1. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bu Qaydanın 2.2-ci və 3.4-cü bəndlərinə uyğun olaraq dondurulmuş aktivlərdən istifadəyə dair qəbul edilmiş qərar "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulmuş subyektlər (bundan sonra - subyekt) üçün məcburi qüvvəyə malikdir.

4.2. Dövlət Təhlükəsizliyi Xidməti bu Qaydanın 2.2-ci və 3.4-cü bəndlərinə uyğun olaraq dondurulmuş aktivlərdən istifadəyə dair qərar qəbul etdikdə, həmin qərarı dərhal Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə və subyektə göndərir.

4.3. Subyekt dərhal dondurulmuş aktivlərdən istifadəyə dair qərara uyğun olaraq, ödənişlərin aparılmasını həyata keçirir və bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə yazılı formada məlumat verir.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında əməkdaşlıq genişlənir

**Türk Dövlətləri Təşkilatına üzv olan ölkələr arasında nəqliyyat-tranzit, investisiya, rəqəmsallaşma və s. sahələrdə də əməkdaşlığın gücləndirilməsi təşəbbüsləri artmaqdadır.**

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir. Səfərin ilk günü İstanbul şəhərində Türk Dövlətləri Təşkilatının iqtisadiyyat və ticarət üzrə məsul nazirlərinin 12-ci görüşü keçirilib. Görüşdə çıxış edən E.Əliyev türk dövlətləri arasında əlaqələrin inkişafında ortaq tarix, mədəniyyət və dəyərlərin, ölkələrimizin təmsil olunduğu qurumların, xüsusilə Türk Dövlətləri Təşkilatının mühüm rolunu vurğulayıb. Qeyd edilib ki, Azərbaycanın quruma üzv olan ölkələrlə tərəfdaşlığı digər sferalarda olduğu kimi, iqtisadi-ticarət sahəsində də genişlənir. Bununla belə, son dövrlərdə nəqliyyat-tranzit, investisiya, rəqəmsallaşma və s. sahələrdə də əməkdaşlığın gücləndirilməsi təşəbbüsləri artmaqdadır. Bu baxımdan, Türk İnvestisiya Fondunun, Türk Ticarət Evinin yaradılması, ticarət prosedurlarının asanlaşdırılması, rəqəmsal ticarət, ölkələrimizin azad iqtisadi və sənaye zonaları arasında əməkdaşlıq platformasının formalaşdırılması iqtisadi əlaqələrin genişləndirilməsində önəmli təşəbbüslərdir.

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Omuraliyev, Özbəkistan Respublikasının gənclər siyasəti və idman nazir Adham İkramov, Qazaxıstan Respublikasının milli iqtisadiyyat nazirinin müavini Abzal Abdikarimov, Qırğızıstan Respublikasının iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Şimali Kipr Türk Respublikasının iqtisadiyyat və energetika naziri Olqun Amcaoğlu çıxışlarında geniş bir coğrafiyada əhatə olunan, böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və bir çox imkanlara malik Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr tərəfindən milli maraqlar nəzərə alınaraq qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan tərəfdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində fikirlər səsləndiriblər.



Həmin gün İstanbulda Türk Dünyası Biznes Forumu keçirilib. E.Əliyev forumda çıxış edərək qloballaşan dünyada baş verən çağırışların həllində türk dövlətlərinin birgə fəaliyyətinin önəmini vurğulayıb. Bildirilib ki, enerji sektorunda birgə təşəbbüslər regional və qlobal enerji mənzərəsini əhəmiyyətli dərəcədə yenidən formalaşdırıb. Bu birgə səylər təkcə iştirakçı dövlətlərin enerji təhlükəsizliyini artırmaqla yanaşı, həm də Avropanın ənənəvi enerji mənbələrindən asılılığını azaltmağa xidmət edir.

Qeyd edilib ki, türk dövlətləri tərəfindən həyata keçirilən əməkdaşlıq və birgə investisiyalar regionun nəqliyyat və ticarət dinamikasına fəal təsir edir və bu kontekstdə Zəngəzur dəhlizinin iqtisadi səmərəliliyi şübhəsizdir.

Təşkilata üzv ölkələrin ticarət və investisiyalar, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və s. kimi sahələrdə tərəfdaşlığı dərinləşdirməsi üçün böyük potensial mövcuddur. Türk İnvestisiya Fondunun yaradılması qarşılıqlı layihələrin maliyyələşdirilməsi və üzv ölkələr arasında gələcək əməkdaşlığın gücləndirilməsi üçün mühüm perspektivlər vəd edir.

Biznes-forumda çıxış edən Türkiyə Ticarət Palatası və Birjaları Birliyinin (TOBB) prezidenti Rifat Hisarcıklıoğlu, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev, Qazaxıstan Respublikası Milli Sahibkarlar Palatasının (ATAMEKEN) sədri Raimbek Batalov və başqaları təşkilatda təmsil olunan ölkələr arasında çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər. Bildirilib ki, indiyədək birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksəksəviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes-forum gerçəkləşdirilib. Bütün bunlar quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələrinin təqdim edilməsi, o cümlədən investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlar arasında işgüzar əlaqələrin dərinləşməsi üçün mühüm əhəmiyyət daşıyır.

Forum işgüzar dairələrin iştirakı ilə keçirilən ikitərəfli görüşlərlə davam edib.



# Azərbaycan Avrasiyada fəal aktora çevrilir

## İlham Əliyevin Tacikistana səfəri ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə çoxplanlı əməkdaşlığının gələcək dinamikasına töhfə verəcək

Son illərdə beynəlxalq aləmdə kifayət qədər tanınan, geosiyasi çəkisi getdikcə artan, iqtisadi qüdrəti ilə fərqlənən, beynəlxalq əməkdaşlıq arenasında inam və etibar qazanan, tam müstəqil siyasəti ilə nüfuzu yüksələn Azərbaycan həm də Qərblə Şərq arasında xoşniyyətli körpü rolunu oynayır.

Bu gün Azərbaycan Xəzər hövzəsi dövlətlərinin Qərbə çıxışını təmin edir. Birmənalı demək olar ki, Qafqazda və Mərkəzi Asiyada uzunmüddətli tərəqqiyə və sabitliyə mühüm töhfələr verən ölkəmiz Xəzər-Atlantik okeanı və Xəzər-Sakit okean-Hind okeanı akvatoriyaları istiqamətində açar rolunu oynayır.

### Yüksələn nüfuz, etibarlı tərəfdaşlıq

Son illər rəsmi Bakının xarici siyasət kursunda Mərkəzi Asiya ölkələri ilə münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi xüsusilə diqqət çəkir. Əslində, münasibətlərin qısa zaman kəsiyində inkişafında ciddi tarixi siyasi əsaslar var. Azərbaycanla Mərkəzi Asiya ölkələrini çoxəsrlik qardaşlıq münasibətləri, ortaq mədəni köklər, keçmiş sovetlər dönəmində iqtisadi əlaqələr dövlətlərarası münasibətlərin möhkəm bünövrəsini təşkil edir ki, bu da bugünkü əməkdaşlığa böyük töhfə verir. Azərbaycan müstəqillik əldə etdikdən sonra Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm çoxtərəfli formatda qarşılıqlı münasibətlər qurub, iqtisadi əlaqələr fəal şəkildə inkişaf etdirilib. Bu proses geopolitik baxımdan da xüsusi əhəmiyyət kəsb edir.

Tam müstəqil siyasəti ilə dünyada sözünə sadiq lider, ən etibarlı tərəfdaş kimi nüfuzu getdikcə yüksələn Prezident İlham Əliyev məhz ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin, hərtərəfli əlaqələrinin daha da şaxələnməsi istiqamətində çox mühüm işlər həyata keçirir. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əlaqələrinin, ticarət dövriyyəsinin son illərdə getdikcə yüksəlməsi və sentyabrın 14-də Tacikistanın paytaxtı Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünə İlham Əliyevin fəxri qonaq kimi dəvət edilməsi bunu təsdiqləyən reallıqdır. Bu, həm də Azərbaycanın dünyada artan nüfuzunun və beynəlxalq əhəmiyyətinin göstəricisidir.

Öncə onu deyək ki, səfər çərçivəsində İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüş keçirib. İki ölkə arasında mövcud münasibətlər və gələcək planlar müzakirə mövzusu olub.

İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirakı ilk dəfə idi və Azərbaycan bu toplantıda regiondankənar ölkə kimi təmsil olunurdu. Əlbəttə, bu, ilk növbədə İlham Əliyevin şəxsiyyətinə olan inamın, onun yürütdüyü uzaqgörən siyasətin, regionun təhlükəsizliyi, iqtisadi sabitliyi üçün həyata keçirdiyi fəaliyyətin nəticəsidir.

Bunu toplantıda iştirak edən dövlət başçılarının səsləndirdikləri fikirlər də bir daha təsdiq edir. Məsələn, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxışında vurğuladı ki, qardaş Azərbaycanın liderinin görüşdə iştirakı xalqlarımızın çoxəsrlik dostluq tellərinin və qarşılıqlı anlaşmanın hərtərəfli möhkəmlənməsinə yönəlmiş səmimi səylərinin göstəricisidir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə İlham Əliyevin tədbirdə iştirakını yüksək qiymətləndirərək dedi ki, Azərbaycan Prezidentinin toplantıda iştirakı region ölkələrinin respublikamız ilə dərin tarixi qarşılıqlı əlaqələrinin və əməkdaşlığın hazırkı yüksək səviyyəsinin daha bir təsdiqidir.

Çoxplanlı əməkdaşlığın gələcək dinamikasını müəyyən edən toplantıda çıxış edən İlham Əliyev bildirdi ki, Azərbaycanla Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

### Əməkdaşlığın yeni sahəsi - "Rəqəmsal İpək yolu"

Azərbaycan Prezidenti regional əməkdaşlığın bu formatının ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacağını bildirərək vurğuladı ki, ikitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı olaraq artır. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz yüksəlib. Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb: "Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük".

Prezident İlham Əliyev həmçinin nəqliyyat və logistika sahəsinin münasibətlərdə mühüm yer tutduğunu da diqqətə çatdırdı, Azərbaycanın Mərkəzi Asiya dövlətləri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsi olduğunu bildirdi. Təbii ki, əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil: "Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır. Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır".

Son illərdə ölkəmizin genişlənən imkanlarından da söz açan İlham Əliyev Azərbaycanın Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malik olduğunu, Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq, gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal iş aparıldığını söylədi. Həmçinin dedi ki, yeni sərmayə layihələri başa çatdıqdan sonra istehsal olunan tanker və quru yükdaşıyan gəmilərin sayı ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Prezident həmçinin təkliflərini və gələcək planlarını açıqlayaraq vurğuladı ki, daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılmasını, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri "Şərq-Qərb" nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır.

İlham Əliyev eyni zamanda dedi ki, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışılan "Rəqəmsal İpək yolu" layihəsidir.

### Orta dəhlizə mühüm töhfə - Zəngəzur dəhlizi

Bütün bunları nəzərə alaraq əminliklə demək olar ki, İlham Əliyevin Tacikistan səfəri və Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirakı Azərbaycanın beynəlxalq arenada iqtisadi və siyasi nüfuzunun artmasında müstəsna rol oynayacaq. Çünki müasir dünya siyasi düzəni iqtisadi maraqlar üzərində tənzimlənir və Avrasiya qitəsində bütün logistik layihələrdə Azərbaycan və Mərkəzi Asiya mühüm strateji əhəmiyyət kəsb edir. Bu isə Avrasiya məkanında bütün iqtisadi layihələrdə Azərbaycanın əvəzolunmaz ölkə olduğunu təsdiqləyir.

Böyük zəfərdən sonra reallaşdırılmaqda olan Zəngəzur dəhlizi isə həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün böyük əhəmiyyət daşıyacaq. Bu dəhliz həm də türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək. Ən önəmlisi isə, bu dəhlizdən salınacaq dəmir yolu xətti gələcəkdə Azərbaycandan keçməklə Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək.

Bir sözlə, Azərbaycanın da üzərində yerləşdiyi Orta dəhlizin əhəmiyyəti dünyada baş verən son hadisələr fonunda daha da önə çıxıb. Zəngəzur dəhlizinin reallaşması isə ölkəmizin mühüm nəqliyyat-tranzit qovşağı kimi imkanlarını daha da artıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın Orta Asiya ölkələri ilə əməkdaşlığı qədim tarixə və perspektivli gələcəyə əsaslanır

Danılmaz həqiqətdir ki, Azərbaycan bu gün Prezident İlham Əliyevin sayəsində türk dövlətləri sırasında nüfuz və söz sahibinə çevrilmişdir. Bu, dövlət başçısının 20 il ərzində bütün sahələr üzrə atdığı praqmatik addımlar və aydın hədəflər nəticəsində mümkün olmuşdur.

Son illər keçirilən mühüm beynəlxalq tədbirlərə və qlobal toplantılara İlham Əliyevin xüsusi dəvət olunması da Azərbaycanın artan beynəlxalq nüfuzunun və rolunun əyani göstəricisidir. Onu da qeyd etmək lazımdır ki, bu nüfuza sahib olmaq üçün Azərbaycan möhtəşəm inkişaf yolu keçmiş, etibarlı tərəfdaş olduğunu dönə-dönə sübut etmiş və nəhayət, qüdrətli dövlət kimi Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq 30 illik işğala son qoymuşdur.

Azərbaycanın bu qələbəsi və uğurlarını əksər ölkələr kimi, türk dövlətləri də təqdir edir və ölkəmizə haqq işində ciddi dəstək verirlər. Və xüsusən türk dövlətləri arasında bu cür qarşılıqlı siyasi münasibətlər dərinləşdikcə iqtisadi əlaqələrimiz də inkişaf edir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti Tacikistana səfəri zamanı Orta Asiya dövlətləri ilə ticarət, iqtisadiyyat, nəqliyyat sahələrində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu, ölkələrimiz arasında sənayenin artımına güclü təkan verən ciddi razılaşmaların əldə edildiyini və bütün bunların iqtisadi münasibətlərimizin daha da inkişafı üçün yeni imkanlar yaratdığını bildirmişdir. Yeri gəlmişkən bildirək ki, Prezident İlham Əliyev Tacikistana bu il ikinci dəfə idi ki, səfərə getmişdir. Cari ilin aprel ayında baş tutmuş səfər çərçivəsində iki ölkə arasında imzalanmış sənədlər, qəbul olunmuş qərarlar münasibətlərimizin strateji xarakter daşıdığını növbəti dəfə təsdiq etmişdir. 30 ildən artıqdır ki, Azərbaycan və Tacikistan müstəqil dövlətlər kimi həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı fəaliyyət göstərir.

Ümumiyyətlə, dövlətimizin başçısı son iki il ərzində Mərkəzi Asiya ölkələrinə 9 səfər etmişdir. Eyni zamanda bu müddət ərzində qardaş dövlətlərin başçıları da Azərbaycana səfərə gəlmişlər. Bu qarşılıqlı səfərlərin və əməkdaşlığın nəticəsi göz qabağındadır. Təkcə keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artmışdır. Bu müddət ərzində dövlətlərimiz arasında birgə sərmayə fondları yaradılmış, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılmışdır. Bütün bu işlərdə Azərbaycan Prezidenti İlham Əliyevin səyi və rolu danılmazdır.

Dövlətimizin başçısının böyüklüyü ondan ibarətdir ki, o hər bir sahədə atdığı addımları ilə Şərqlə Qərb arasında kəsişən və toqquşan bütün maraqları sülhə aparan körpülərə və qovşaqlara çevirə bilir. Məhz bu addımların sayəsində Azərbaycan indi Xəzərdə 50-dən artıq gəmisi ilə ən böyük ticarət donanması yaradaraq Avropa ilə Asiya arasında daşımalar üçün olduqca böyük üstünlüklər əldə etmişdir. Bu gün ölkəmizin artan tranzit imkanları həm də bütün türk dövlətlərinin maraqlarına xidmət edir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin tələbatını nəzərə alaraq gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal iş gedir. Yeni sərmayə layihələri başa çatdıqdan sonra istehsal olunan tanker və quru yükdaşıyan gəmilərin sayı bugünkü 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Amma bizi türk dövlətləri ilə bağlayan təkcə qarşılıqlı iqtisadi maraqlar deyil. Azərbaycanı və Mərkəzi Asiya ölkələrini bir-birlərinə xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri də bağlayır. Ortaq mədəni köklər bu gün dövlətlərimiz arasında əlaqələrin sarsılmaz bünövrəsidir. Biz bu möhtəşəm dostluğun gücünü Vətən müharibəsində hiss etdik və indi - Qarabağ və Şərqi Zəngəzurun bərpasında da hiss edirik. Özbəkistan, Qırğızıstan və Qazaxıstan bu yaxınlarda Azərbaycanın Qarabağ bölgəsində qondarma qurumun keçirdiyi "prezident seçkiləri"ni tanımadılar. Ən vacibi isə odur ki, bu ölkələr həm də işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-yenidənqurma işlərində iştirak edirlər. Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən və açılışı bu yaxınlarda baş tutan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb üçün tikilən müasir binanı, Qazaxıstan tərəfindən Füzulidə inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzini xalqımız qardaş hədiyyəsi hesab edir.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir, Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da bu amalına sadiq qalacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bakı şəhərinin azad edilməsinin 105 illiyi ilə əlaqədar "dəyirmi masa" keçirilib



Sentyabrın 15-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Bakı şəhərinin azad edilməsinin 105 illiyinə həsr olunmuş "dəyirmi masa" keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərindən, bu əlaqələrin uğurla inkişafından, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun və Azərbaycan korpusunun Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etməsinin tarixi əhəmiyyətindən danışıblar.

Qeyd olunub ki, qardaş ölkə istər torpaqlarımızın işğalda olduğu dövrdə, istərsə də 2020-ci il sentyabrın 27-dən başlayan və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı qələbəmiz ilə nəticələnən Vətən müharibəsində Azərbaycana mənəvi və siyasi dəstək göstərib.

Tədbir Bakı şəhərinin azad edilməsinin 105 illiyinə həsr olunmuş videoçarxın nümayiş edilməsi ilə başa çatıb.

# Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu "Türk şəhidliyi" abidəsini ziyarət edib



Sentyabrın 15-də Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Bakı şəhərinin azad edilməsinin 105 illiyi ilə əlaqədar olaraq "Türk şəhidliyi" abidəsini ziyarət edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Abidə qarşısına Müdafiə Nazirliyi adından qızılgül çələngi qoyulub, qərənfillər düzülüb və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

# Qərbi Azərbaycan İcmasının rəhbər heyəti "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 105-ci ildönümü münasibətilə ölkəmizdə silsilə tədbirlər keçirilir. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Qərbi Azərbaycan İcmasının rəhbər heyəti sentyabrın 15-də Şəhidlər xiyabanına gələrək, 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri qoyub.

Tarixi hadisə ilə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli deyib: "Sentyabrın 15-i Azərbaycan tarixinin şərəfli günlərindən biridir. Çünki bu tarixdə Bakı şəhəri erməni-bolşevik işğalından azad edilib. Bakının işğaldan azad olunması zamanı Osmanlı ordusu 1130 şəhid verib. Bu, Azərbaycan-Türkiyə qardaşlığının tarixi nümunəsidir".

Əziz Ələkbərli əlavə edib ki, Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq əlaqələrini 44 günlük Vətən müharibəsində də gördük. Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov 1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad olunmasında danılmaz əməyi olan Osmanlı ordusunun qardaşlıq yarımdan bəhs edib.

Türkiyə ilə Azərbaycanın bütün sahələrdə əməkdaşlıq etdiyini vurğulayan komitə sədri deyib: "Son günlər Ermənistanın şərti dövlət sərhədində və Qarabağ iqtisadi rayonunda təxribatlarına cavab olaraq Türkiyə hər zaman ölkəmizin yanında olduğunu bəyan edib. Bu da o deməkdir ki, Azərbaycana qarşı hər hansı təhlükə olarsa, Türkiyə yanımızdadır".

Qərbi Azərbaycan İcması sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu da 15 sentyabrın Azərbaycanın dövlətçilik tarixində əhəmiyyətli yer tutduğunu bildirib. Deyib ki, qədirbilən Azərbaycan xalqı Qafqaz İslam Ordusunun Bakının işğaldan azad olunması uğrunda verdiyi şəhidləri heç vaxt unutmayıb və bundan sonra da unutmayacaq.

"1918-ci ilin 15 sentyabrı Şuşa Bəyannaməsinə gələn yolun başlanğıcıdır. Əsrlər boyu davam edən Türkiyə-Azərbaycan qardaşlığının XX əsrdə yenidən möhkəmlənməsi XXI əsrin əvvəllərində sıxlaşan münasibətlərə zəmin yaratdı", - deyə deputat əlavə edib.

# Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını davam etdirir.



Bu çərçivədə sentyabrın 15-də Heydər Əliyev Mərkəzində 1992-ci ildən ölkəmizin üzv olmaqla səmərəli əməkdaşlıq, həmçinin 2023-cü ildən sədrlik etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, yüksəksəviyyəli iclasda İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Qırğız, Tacikistan baş prokurorları, Türkiyənin ədliyyə naziri və Türkmənistanın baş prokuroru müavininin rəhbərlik etdikləri nümayəndə heyətləri, eləcə də digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev təşkilatın 4-cü iclasının müasir müstəqil dövlətimizin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsini tarixi hadisə adlandıraraq Ulu Öndərin İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə daim önəm verdiyini, bu gün ölkəmizlə təşkilat arasındakı qarşılıqlı əlaqələrin yüksək səviyyədə inkişaf etməsinin məhz dahi şəxsiyyətin uzaqgörən siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Kamran Əliyev müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətinin ilk daxil olduğu qurumlardan birinin İqtisadi Əməkdaşlıq Təşkilatı olduğunu diqqətə çatdırıb. Baş prokuror təşkilata üzv olan ölkələrlə Azərbaycanı ortaq tarix, din, regional iqtisadi və siyasi maraqların birləşdirdiyini qeyd edib.

Çıxış edən İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Jandos Asanov ölkəmizin sədrliyi dövründə təşkilata üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasının keçirilməsi münasibətilə iştirakçıları təbrik edərək bildirib ki, Azərbaycan regional və beynəlxalq iqtisadi təşəbbüsləri hər zaman dəstəkləyən və bu işlərə böyük töhfələr verən bir dövlət olaraq üzv olan dövlətlərlə bir sıra prioritet sahələr, o cümlədən ticarət, investisiya, enerji, ətraf mühit və cinayətkarlığa qarşı mübarizə sahələri üzrə əməkdaşlıq edir.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquq islahatları, müxtəlif növ cinayətlərə qarşı mübarizədə ölkəmizin əldə etdiyi nailiyyətlər barədə iştirakçılara məlumat verib.

Bundan sonra nümayəndə heyətləri müxtəlif aktual mövzularda, o cümlədən narkotik qaçaqmalçılığı, kibercinayətkarlıq və digər cinayətlərə qarşı mübarizə, prokurorluğun fəaliyyətinin rəqəmsallaşdırılması sahəsində ölkələrinin əldə etdiyi müsbət nəticələr barədə təcrübə mübadiləsi aparıblar.

Tədbirdə təşkilati məsələlərə baxılaraq, iclasın yekunlarına dair protokol və bəyannamə qəbul edilib.

# Qonaqlar Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar tədbirdə iştirak ediblər





Heydər Əliyev Mərkəzində MDB Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 33-cü iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan qonaqların iştirakı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin adını daşıyan mərkəzdə keçirilən tarixi tədbirdə Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi və misilsiz xidmətləri, dövlətçiliyin qorunması istiqamətində həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti, ölkəmizin hərtərəfli inkişafı ilə bağlı gördüyü işlər barədə qonaqlara məlumat verilib. Daha sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Əfsanəvi insan" adlı sənədli film nümayiş etdirilib.

# Bakıda ilk dəfə MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının növbəti iclası olub



Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Rusiyanın baş prokurorları, MDB Baş prokurorların Əlaqələndirmə Şurasının icraçı katibi, eləcə də MDB Katibliyi və MDB-nin Antiterror mərkəzinin məsul şəxsləri iştirak ediblər.

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev dövlət başçısı İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

Sonra çıxış edən Azərbaycanın baş prokuroru təşkilat tarixində ilk dəfə olaraq yüksəksəviyyəli tədbirin Bakıda təşkilindən məmnunluğunu ifadə edərək mötəbər iclasın iştirakçı ölkələrin prokurorluq orqanları arasında cinayətkarlıqla mübarizə, asayişin təmini, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlığın inkişafına əlavə təkan verəcəyini vurğulayıb. MDB İcraiyyə Komitəsinin məsul əməkdaşı çıxış edərək təşkilati məsələlərlə bağlı məlumat verib.

İclasda Belarusun baş prokuroru Andrey Şved narkotik alverçilərinin göstərişi ilə vətəndaşlara qarşı zorakılıq xarakterli cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi, Qazaxıstanın baş prokuroru Berik Asılov cinayət prosesində vətəndaşların konstitusiya hüquqlarının müdafiəsi, Qırğızıstanın baş prokuroru Kurmankul Zuluşev yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində təmsil etdikləri ölkələrin təcrübəsini bölüşüblər. Rusiyanın baş prokuroru İqor Krasnov dövlət əmlakının mühafizəsində prokurorluğun rolu, Tacikistanın baş prokuroru Yusuf Raxmon isə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində təmsil etdikləri qurumların fəaliyyətindən danışıblar, Özbəkistanın baş prokuroru Niqmatılla Yuldaşev isə "Sahibkarlıq subyektləri və özəl investorlar üçün yaradılan geniş imkanlar" mövzusunda fikirlərini bildiriblər.

Baş prokuror Kamran Əliyev beynəlxalq tədbirdə "Beynəlxalq hüquqi əməkdaşlıq - Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi" mövzusunda çıxış edib.

Daha sonra MDB-yə üzv dövlətləri arasında əməkdaşlığın genişləndirilməsində müstəsna xidmətlərinə görə Azərbaycanın baş prokuroru Kamran Əliyevə "MDB ölkələrinin fəxri prokuroru" döş nişanı və təşkilat çərçivəsində fəaliyyəti qiymətləndirilən digər şəxslərə müvafiq mükafatlar təqdim edilib.

Tədbirdə Əlaqələndirmə Şurasının 33-cü iclasının gündəliyində duran aktual məsələlər, o cümlədən növbəti iclasın keçirilmə yeri və vaxtı, habelə digər təşkilati məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilərək iştirakçılar tərəfindən imzalanıb.

# Azərbaycan ilə Türkiyə arasında hüquqi sahədə səmərəli əlaqələr qurulub

Paytaxtımızda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyənin ədliyyə nazirinin müavini Hasan Yılmaz ölkəmizə rəsmi səfərə gəlib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sentyabrın 15-də Azərbaycanın baş prokuroru ilə türkiyəli nazir müavini arasında keçirilən görüşdə iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə səyləri sayəsində ən yüksək müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd olunub.

Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə məlumat verib.

Nümayəndə heyətinin rəhbəri Hasan Yılmaz ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini və səmərəli əməkdaşlığın həyata keçirildiyini bildirib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

# Ölkələr arasında etibarlı əməkdaşlıq dostluq prinsipinə əsaslanır



Baş prokuror Kamran Əliyev ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının baş prokuroru Berik Asılovla görüşüb. Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş Prokurorlarının 4-cü iclasında iştirak etmək üçün baş prokuror Kamran Əliyevin dəvəti ilə Qazaxıstan Respublikasının baş prokuroru Berik Asılovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

İkitərəfli görüşdə Azərbaycanın baş prokuroru vurğulayıb ki, etnik, tarixi, mədəni və dini ortaqlıqlar olan ölkələrimiz arasında son illərdə müxtəlif sahələrdə əlaqələrin inkişafı, ikitərəfli münasibətlərin kompleks şəkildə möhkəmlənməsi və yeni əməkdaşlıq imkanlarının yaranmasında Prezident İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasındakı qarşılıqlı etimad və dialoq mühüm rol oynayır.

Həmçinin bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq və hüquq-mühafizə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək hüquqi yardım, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin rəhbəri Berik Asılov təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib. O, iki ölkə arasında mövcud əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün çətinliklərdə bir-birinə dəstək verdiyini diqqətə çatdırıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.



Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistanın baş Prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin tarixi köklərə söykəndiyi, siyasi, iqtisadi, hüquqi, mədəni və digər sahələrdə də uğurla inkişaf etdirildiyi, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələr arasında əlaqələrin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq prinsipinə əsaslandığı vurğulanıb.

Baş prokuror qeyd edib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlığın uğurla inkişaf etdirilməsində Prezident İlham Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmon arasında olan qarşılıqlı etimad və dialoq mühüm rol oynayır. Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquqi islahatlar, xüsusilə prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə məlumat verib.

Nümayəndə heyətinin rəhbəri Yusuf Raxmon təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına, ölkəmizin prokurorluq orqanlarının cinayətkarlıqla mübarizədə formalaşdırılmış müsbət təcrübəsinin öyrənilməsinə böyük əhəmiyyət verdiyini bildirib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə, eləcə də qarşılıqlı beynəlxalq hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

*AZƏRTAC*

# Azərbaycanla Türkiyə arasında məhkəmə-hüquq sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub

Sentyabrın 15-də ölkəmizdə səfərdə olan Türkiyənin baş prokuroru Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Məhkəmədə olub.

Bu barədə Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Görüşdə Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, Azərbaycan-Türkiyə arasında sarsılmaz dostluq münasibətləri bütün istiqamətlərdə uğurla inkişaf edir. Qeyd edilib ki, iki ölkə arasında əlaqələrin möhkəmlənməsində dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın səmimi qardaşlıq münasibətlərinin xüsusi rolu var.

Azərbaycanla Türkiyə arasında məhkəmə-hüquq sahəsində də əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu və birgə fəaliyyət nəticəsində mövcud əlaqələrin daha da gücləndiriləcəyi vurğulanıb.

Nümayəndə heyətinin rəhbəri Bəkir Şahin ikitərəfli əlaqələri yüksək qiymətləndirərək bu münasibətlərin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Keçən ilin müvafiq dövrünə nisbətdə ÜDM artıb



Sentyabrın 15-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Tahir Mirkişili əvvəlcə Azərbaycan iqtisadiyyatının son səkkiz ayının bəzi göstəricilərindən danışıb. Diqqətə çatdırıb ki, keçən ilin müvafiq dövrünə nisbətdə ÜDM qeyri-neft sektorunda 3,4 faiz olmaqla, 0,7 faiz artıb. Azərbaycan iqtisadiyyatının artım potensialına toxunan komitə sədri iqtisadi sabitliyin və maliyyə dayanıqlılığının saxlanması tendensiyalarından danışıb.

Sonra komitə sədri gündəliyin birinci məsələsini - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatını müzakirəyə çıxarıb. O bildirib ki, hesabat dövründə komitənin 29 iclası keçirilib, bu iclaslarda 223 məsələyə baxılıb, o cümlədən 97 qanun layihəsi və bir hesabat (Hesablama Palatası) müzakirə edilib. Həmçinin komitənin ünvanına daxil olmuş ərizə və müraciətlərlə bağlı müvafiq tədbirlər görülüb.

Komitənin 2023-cü ilin payız sessiyası üçün iş planı ilə bağlı komitə sədri bildirib ki, qarşıdakı sessiyada büdcə zərfi və komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi nəzərdə tutulub. Qeyd olunub ki, planda artıq bir neçə yeni qanun layihəsi, o cümlədən Rəqabət Məcəlləsi layihəsi öz əksini tapıb. Eyni zamanda qarşıdakı sessiyada komitədə aidiyyəti təşkilatların nümayəndələri ilə görüşlərin, ictimai dinləmələrin və digər tədbirlərin keçirilməsi planlaşdırılıb.

İclasın gündəliyində olan qanun layihələrini müzakirəyə təqdim edərkən komitə sədri "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat vermək üçün Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Fərid Əhmədova söz verib. O bildirib ki, preambuladan və 30 maddədən ibarət sazişin məqsədi tərəf dövlətlər arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi və vergi münasibətlərində əməkdaşlığın gücləndirilməsidir. Sazişin müddəaları tərəf dövlətlərin birinin və ya hər ikisinin rezidenti olan şəxslərin Azərbaycan Respublikasında fiziki şəxslərin gəlir vergisi və hüquqi şəxslərin mənfəət vergisinə, Slovakiya Respublikasında isə fiziki şəxslərin və hüquqi şəxslərin gəlir vergisinə münasibətdə tətbiq edilir.

Dördüncü məsələ olan "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsi ilə bağlı komitə sədri diqqətə çatdırıb ki, dəyişikliklər bəzi terminlərin, adların dəqiqləşdirilməsinə və fondun daha effektiv işləməsinə xidmət edir.

Sonra komitə sədri bildirib ki, növbəti 4 qanun layihəsi Azərbaycanın ümumdünya poçt xidmətinin bəzi beynəlxalq sənədlərinə qoşulması ilə əlaqədardır və məsələ ilə bağlı məlumat vermək üçün Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Nəzrin Əliyevaya söz verib.

"Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol"a qoşulmaq haqqında, "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında, "Ümumdünya Poçt Konvensiyası"na və "Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu"na qoşulmaq haqqında, "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokoluna qoşulmaq barədə qanun layihələri barədə danışan Nəzrin Əliyeva sənədlərin beynəlxalq poçt xidmətlərinin keyfiyyətinin artırılmasına və təkmilləşdirilməsinə yönəldiyini, həmçinin bu sahədə mövcud olan uyğunsuzluqların və qeyri-dəqiqliyin aradan qaldırılması məqsədinə xidmət etdiyini vurğulayıb.

Doqquzuncu məsələ olan "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri qeyd edib ki, sənəddə lisenziyanın verilməsi şərtlərinin Azərbaycan Respublikasının qanunları ilə, icazələrin verilməsi şərtlərinin isə Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilən tələblər əsasında tənzimlənməsi təklif olunub.

Onuncu məsələnin "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu deyən Tahir Mirkişili diqqətə çatdırıb ki, layihə müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsini nəzərdə tutur.

On birinci məsələnin də "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu bildirən komitə sədri sənəddə fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun məbləğlərinin azaldılmasının nəzərdə tutulduğunu söyləyib.

On ikinci məsələ olan "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlərin nağdsız qaydada həyata keçirilməsinin təsbit edildiyi diqqətə çatdırılıb.

Sonuncu məsələ ilə bağlı komitə sədri bildirib ki, "Poçt haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) rəqəmsal inkişaf (o cümlədən poçt) və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə nazirliklərinin rəyi nəzərə alınmaqla, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilməsi nəzərdə tutulub.

Müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Ziyad Səmədzadə, Vahid Əhmədov, Rüfət Quliyev, Aydın Hüseynov, Məzahir Əfəndiyev, Vüqar Bayramov, Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Millət vəkilləri komitənin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlərlə bağlı hesabatını qənaətbəxş sayıblar, qarşıdakı payız sessiyası üçün iş planı təsdiqləyiblər, gündəlikdəki qanun layihələrini Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

***"Azərbaycan"***

# Heydər Əliyev Fondu bölgələrdə yeni məktəb binalarını istifadəyə verib

## Ağcabədi




Sentyabrın 15-də Heydər Əliyev Fondu tərəfindən rayonun Poladlı kənd tam orta məktəbi üçün inşa edilmiş 300 şagird yerlik məktəb binası istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin, Qarabağ Regional Təhsil İdarəsinin, Ağcabədi Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd sakinləri iştirak ediblər.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov, Elm və Təhsil Nazirliyinin Hüquq şöbəsinin müdiri Səbuhi Mahmudov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək, müəllim və şagirdləri məktəbin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris ocaqlarının tikilməsi, bu sahədə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr barədə ətraflı danışıblar. Bildirilib ki, 2023-2024-cü tədris ilində Elm və Təhsil Nazirliyinin sifarişi əsasında 23, Heydər Əliyev Fondunun sifarişi əsasında isə 19 təhsil müəssisəsinin açılışı nəzərdə tutulur.

Məlumat verilib ki, 1988-ci ildə inşa olunmuş Ağcabədi rayonunun Poladlı kənd tam orta məktəbi keyfiyyətli tədris üçün yararsız vəziyyətdə olduğundan yeni təhsil ocağının inşasına qərar verilmişdi. Yeni binanın tikintisi ilə bağlı işləri üzərinə götürən Heydər Əliyev Fondu tərəfindən 300 şagird yerlik yeni məktəb inşa olunub. İkimərtəbəli 3 korpusdan ibarət olan yeni təhsil müəssisəsində 14 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi hazırlıq, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt, idman zalları və açıq idman meydançası var. Bütün otaqlar lazımi avadanlıqlarla və əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb. Heydər Əliyev Fondunun Poladlı kənd məktəbində gördüyü işlər təhsilin keyfiyyətinin təminatına, uşaqların bilik və bacarıqlarının davamlı artımına hesablanıb.

Tədbirdə söz alan pedaqoji kollektivin nümayəndələri və valideynlər dövlət başçısına dərin minnətdarlıqlarını bildirib, yüksək qayğıya əməli işlə cavab verəcəklərini söyləyiblər.

Çıxışlardan sonra tədbir iştirakçıları məktəbdə yaradılan şəraitlə tanış olublar. 2023-2024-cü tədris ilində təhsil müəssisəsində 344 şagirdin təhsil prosesinə cəlb olunması planlaşdırılır. Məktəbdə 34 nəfər pedaqoji işçi çalışır.

## Tərtər



Rayonun Azadqaraqoyunlu kəndində 1979-cu ildə inşa olunmuş Şükür Rəhimov adına tam orta məktəbin binası müasir tələblərə cavab vermədiyindən Heydər Əliyev Fondu tərəfindən yeni binanın inşası həyata keçirilib. Sentyabrın 15-də 320 şagird yerlik məktəb binası istifadəyə verilib. Məktəb binasının açılış mərasimində Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin, Qarabağ Regional Təhsil İdarəsinin, Tərtər Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd sakinləri iştirak ediblər. Tədbirdə respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov, Elm və Təhsil Nazirliyinin Hüquq şöbəsinin müdiri Səbuhi Mahmudov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev çıxış edərək müəllim, şagird və valideynləri yeni tədris ilinin başlanması və təhsil müəssisəsinin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkədə və rayonda gedən sosial-iqtisadi inkişafdan, təhsil sahəsində əldə olunan uğurlardan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədə gördüyü ardıcıl tədbirlərdən danışıblar.

Tədbirdə məktəbin direktoru Yeganə Mehtiyeva, X sinif şagirdi Sevinc Məmmədli, kənd ağsaqqalı Arif Hüseynov, qazi Sadiq Abbaslı da çıxış edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində görülən işlər ölkədə təhsil strategiyasının uğurla həyata keçirilməsinə, bu sahənin effektiv idarə olunmasına, təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edilməsinə istiqamətlənib.

Məktəbin tikintisində əməyi olanlara fəxri fərman verilib. Sonra tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Üçmərtəbəli 2 korpuslu yeni təhsil ocağında tədris üçün zəruri şərait qurulub. Buradakı bütün fənn otaqları və laboratoriyalar mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilib. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

## Saatlı



Rayonun Qaracalar kəndində Heydər Əliyev Fondu tərəfindən inşa edilən məktəb binası Bilik Günündə istifadəyə verilib.

Məktəbin açılış tədbirində Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin nümayəndələri, Saatlı Rayon İcra Hakimiyyətinin rəhbərliyi, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər şagird və müəllimləri yeni tədris ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıblar. Qeyd edilib ki, Heydər Əliyev Fondunun 2023-2024-cü tədris ili üçün təhsil sahəsində reallaşdırdığı növbəti layihəsinin ünvanı Saatlı rayonunun Qaracalar kəndidir. Burada fond tərəfindən 360 şagird yerlik yeni məktəb binası tikilib.

Üçmərtəbəli və 2 korpuslu bu təhsil ocağı da digərləri kimi zəruri mebel və avadanlıqlarla təmin edilib, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz olunub, təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilib.

Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində nümunəvi vətəndaşa çevirir. Hər bir insanın təhsilinin əsası isə məktəbəqədər təhsil müəssisəsində və orta məktəbdə qoyulur. Elə məhz bu səbəbdən də Heydər Əliyev Fondu ölkədə bu sahənin inkişafına hərtərəfli dəstəyini göstərməklə hər il onlarla təhsil ocağını inşa və ya əsaslı bərpa edərək istifadəyə verir.

Saatlı rayonunun Qaracalar kənd məktəbi də fondun həyata keçirdiyi təhsil layihələri sırasındadır.

Təhsil müəssisəsinin həyətyanı ərazisində abadlıq işləri görülüb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemi quraşdırılıb.

Çıxışlardan sonra Bilik Günü zəngi səslənib, məktəb binası ilə tanışlıq olub.

## Sabirabad



Heydər Əliyev Fondu tərəfindən inşa olunan rayondakı Narlıq kənd Ə.Səmədov adına orta məktəbin binası Bilik Günündə istifadəyə verilib. Kənddə 1975-ci ildə inşa olunan məktəb binası istifadəyə yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən bu ilin əvvəlində yeni binanın inşasına başlanılıb. İkimərtəbəli yeni məktəb binası 300 şagird yerlikdir və 4 korpusdan ibarətdir. Yeni tədris ilini tam təmirli məktəbdə başlayan şagird və müəllimlərə keyfiyyətli tədris prosesi üçün lazımi şərait yaradılıb.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib. Məktəbdə müasir standartlara cavab verən fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları və açıq idman meydançası yaradılıb. Həmçinin məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb.

Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Elm və Təhsil Nazirliyinin nümayəndəsi Elvin Rüstəmov, regional təhsil şöbəsinin əməkdaşları və məktəbin adını daşıdığı, rayonun ilk şəhidi, polis leytenantı Əhmədağa Səmədovun həyat yoldaşı Lətafət Səmədova çıxış ediblər.

Çıxışlarda dövlətimizin təhsil infrastrukturunun yaxşılaşdırılması istiqamətində gördüyü işlərdən danışılıb. Bildirilib ki, 2023-2024-cü tədris ilində Elm və Təhsil Nazirliyinin sifarişi əsasında 23, Heydər Əliyev Fondu tərəfindən isə 19 təhsil müəssisəsinin açılışı nəzərdə tutulur. Bu ilin sonunadək Elm və Təhsil Nazirliyinin sifarişi əsasında 8 təhsil müəssisəsinin açılışı planlaşdırılır.

***AZƏRTAC***

# Bilik Günü münasibətilə tədbir keçirilib

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, dosent Aqil Şirinov I kurs tələbələri ilə görüşüb. Öncə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Aİİ-nin rəhbəri Aqil Şirinov I kurs tələbələrini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar diləyib. Rektor qeyd edib ki, tələbələr təhsil aldıqları illəri səmərəli keçirsələr, elmin, biliyin faydasını dərk etsələr, öz işlərinin peşəkarları olacaqlar.

İnstitut rəhbəri vurğulayıb ki, anadan olmasının 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev hər zaman gənc nəslin sağlam böyüməsinə, təhsilinə, həyatda layiqli yer tutmasına qayğı və diqqətlə yanaşmışdır.

Aqil Şirinov daha sonra Aİİ-də tələbələr üçün yaradılmış şəraitdən, təhsilin səviyyəsindən danışıb, tələbə-müəllim münasibətlərinə toxunub. Bildirib ki, yeni tədris ilində tələbələr dərslərindən əlavə, müxtəlif əlavə pulsuz kurslarda da iştirak edə biləcəklər. Buna nümunə kimi ərəb və ingilis dilləri, həmçinin peşə hazırlığı kurslarını qeyd etmək olar.

Ali təhsil müəssisəsi tərəfindən təşkil olunan yay və qış məktəbləri barədə söhbət açan Aqil Şirinov qeyd edib ki, semestr ərzində müvəffəqiyyət göstəricisi yüksək olan tələbələr bu layihələrdə iştirak edib, ölkəmizin müxtəlif regionları ilə tanış olmaq, elmi seminarlarda iştirak etmək imkanı qazanacaqlar.

Aİİ rəhbəri həmçinin semestr ərzində ən yüksək göstəricilərə nail olan tələbələrə veriləcək təqaüdlər barədə də danışıb. Bildirib ki, tələbələr təhsil aldıqları müddətdə təqaüdlə təmin olunurlar. "Dinşünaslıq" ixtisası üzrə təhsil alan, semestr ərzində yüksək göstəricilərə malik olan 1 (bir) tələbə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təsis etdiyi, Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) tərəfindən ödənilən - Ümummilli Lider Heydər Əliyev adına təqaüddən; "İslamşünaslıq" ixtisası üzrə təhsil alan, yüksək göstəricilərə malik olan 1 (bir) tələbə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təsis etdiyi Şeyxülislam təqaüdündən; yüksək göstəricilərə malik olan 3 (üç) tələbə akademik Vasim Məmmədəliyev adına təqaüddən yararlanacaqlar. Həmçinin MDTF-nin tələbələrin sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə ayırdığı maddi yardımdan da bəzi tələbələr faydalana biləcəklər.

Rektor həmçinin vurğulayıb ki, tələbələr tədris ili ərzində pulsuz kitab, ödənişsiz yemək və digər xərclərlə də təmin olunurlar.

Sonda Aİİ-yə yüksək balla qəbul olan tələbələrə mükafatlar təqdim edilib.

***"Azərbaycan"***

# “Böyük qayıdış” proqramı sürətlə icra olunur

## 30 ildən sonra Füzulidə ilk tədris ilinin zəngi çalınıb











Otuz ildən sonra işğaldan azad olunan Füzuli şəhərində ilk Bilik Günü keçirilib. Bu əlamətdar tarixin qeyd olunduğu məktəblər sırasına Özbəkistan Prezidentinin özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb də qoşulub.

AZƏRTAC xəbər verir ki, tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Qarabağ Regional Təhsil İdarəsinin rəhbərliyi, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qonaqlar məktəbdə "Qarabağ şikəstəsi" ilə qarşılanıblar. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxışlarda diqqətə çatdırılıb ki, Füzulidə tədris ilinin Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyevanın açılışını etdikləri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə başlanması türk dünyasının qardaşlığını göstərməklə rəmzi məna daşıyır. Həmçinin məktəbin kollektivi Qarabağ torpaqlarında yeni tədris ilinin başlanması münasibətilə təbrik olunub. Bildirilib ki, işğaldan azad edilən digər rayonlarımız kimi, Qarabağın dilbər guşələrindən olan Füzuli torpaqlarında da həyat canlanmağa başlayıb və bu günlər Füzuli sakinlərinin gələcək firavan dövrünün başlanğıcıdır.

Vurğulanıb ki, yaxın zamanlarda Füzulidə digər təhsil ocaqları da fəaliyyətə başlayacaq və Qarabağ torpaqlarında təhsil alan şagirdlər Azərbaycan elminə öz töhfəsini verəcək.

Açılış mərasimindən sonra məktəbdə Bilik Gününün zəngi səslənib, şagirdlər sevinc hissi ilə sinif otaqlarına daxil olublar.

Sonra məktəbdə yaradılan şəraitə baxış keçirilib.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana mövcuddur. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Yeni dərs ilində məktəbdə 11 sinif olmaqla 160 şagird təhsil alacaq və 15 müəllim tədris aparacaq.

## İşğaldan azad olunan rayonlarda peşə təhsili infrastrukturu yaradılacaq

Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə ilk tədris ili başlandı, çox sevindirici haldır. Qürurlu bir günə şahidlik edirik. Hazırda məktəbdə 160 şagird təhsil alır, amma bu tədris ilində şagirdlərin sayı 400-ə çatacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə jurnalistlərə açıqlamasında elm və təhsil naziri Emin Əmrullayev söyləyib.

Təhsil ictimaiyyətini Bilik Günü münasibətilə təbrik edən nazir deyib: "Bu tədris ilində 133 mindən çox şagirdimiz birinci sinfə qədəm qoyub, ümumilikdə isə 1,5 milyon şagird məktəblərdə təhsilini davam etdirəcək".

E.Əmrullayev bildirib ki, Laçın şəhərində 140-a yaxın şagird tədrisə başlayıb, onların da sayı artacaq. Zabux qəsəbəsində isə tədris ilinin sonuna qədər 100-dən artıq şagird məktəbə gedəcək. Ağalı kəndində ötən il cəmi 70 şagird var idisə, bu il məktəb 120 şagirdlə təhsilə davam edir. Talış kəndində də məktəbdə tədris aparılır.

Onun sözlərinə görə, ümumiyyətlə, işğaldan azad olunan ərazilərdə hazırda məktəblərin tikintisi, təhsil infrastrukturunun yaradılması istiqamətində işlər davam edir. "Həmçinin 8 peşə təhsil müəssisəsi tikiləcək və bunların hər biri böyük həcmli komplekslər olacaq. Onlardan birincisinin təməli Prezident İlham Əliyev tərəfindən Füzuli rayonu ərazisində qoyulub və layihələndirmə işi artıq yekunlaşıb, noyabr ayında işlərə başlanması planlaşdırılır. Növbəti mərhələdə isə Şuşa şəhərində belə bir layihənin gerçəkləşməsi nəzərdə tutulub. Ümumiyyətlə, işğaldan azad olunan bütün rayonlarda peşə təhsili infrastrukturu yaradılacaq", - deyə nazir əlavə edib.

## Laçında 31 ildən sonra ilk zəng çalınıb



Sentyabrın 15-də Laçın şəhəri 2 nömrəli tam orta məktəbdə yeni tədris ilinə start verilib.

AZƏRTAC xəbər verir ki, 2023-2024-cü tədris ilində sözügedən məktəbdə 44 şagirddən ibarət 11 sinif təşkil edilib və 16 müəllim burada tədris aparacaq.

Qeyd edək ki, 510 şagird yerlik ikimərtəbəli məktəb binasında 13 sinif otağı, 2 laboratoriya, kimya, fizika, biologiya kabinetləri, informatika, çağırışaqədərki hazırlıq, tibb, həmçinin qızlar və oğlanlar üçün texnologiya otaqları, kitabxana, idman zalı, 182 yerlik akt zalı mövcuddur.

## Füzulidə daha 25 ailəyə evlərin açarları təqdim olunub

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Səhər saatlarında növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan 25 ailə Füzuliyə çatıb.




AZƏRTAC xəbər verir ki, yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 25 ailə olmaqla, 73 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük sevinclər qarşılanıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 144 ailə olmaqla, 514 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

## Füzulililər torpaqlarımızın işğaldan azad olunmasında əməyi keçən hər kəsə minnətdardırlar








"Şükürlər olsun ki, bu gün Füzulimə, doğma yurduma, dədə-baba torpağıma qayıdıram. İllər sonra arzularımız reallaşıb. Torpaqlarımızın işğaldan azad olunmasında əməyi keçən hər kəsə minnətdarıq".

Bu sözləri AZƏRTAC-a doğma yurduna qayıdan Füzuli sakini Xuraman Süleymanova söyləyib.

Köçkünlük müddətində dövlətin qayğısı ilə əhatə olunduqlarını bildirən X.Süleymanova deyib: "Azərbaycan Prezidentinə, ordumuza minnətdarıq ki, uşaqlığımızı, gəncliyimizi keçirdiyimiz yerləri bizə qaytardı. Biz öz doğulduğumuz yerlərə qayıtmaqla tarixi anlar yaşayırıq".

* * *

Füzuliyə qayıdan daha bir sakin Səriyə Əliyeva da bu sevinc hisslərinə qoşulub deyir: "Füzuliyə qayıtmağın sevincini yaşayıram. Doğma yurduma qayıtdıqdan sonra doğmalarımın məzarını ziyarət etmək istəyirəm".

O, doğma yerlərə qayıtdıqdan sonra hər şeyin yaxşı olacağına ümidlidir: "Uzun müddətdən sonra doğulub boya-başa çatdığımız yerlərə qayıtmaq gözəl hisslərdir, bu gün onun həyəcanını yaşayıram. Bu günləri bizə yaşadan şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı arzulayıram".

O, 30 ildən sonra işğaldan azad edilmiş ərazilərə soydaşlarının qürurlu şəkildə qayıtdıqlarını qeyd edib.

* * *

"Füzulidən çıxanda 45 yaşım var idi. 30 il o yerlərin həsrəti ilə yaşamışam. Şükürlər bu günə ki, Füzuliyə qayıdıram. Doğma məkanda əkinçiliklə məşğul olmaq istəyirəm". Füzuli sakini Şəhistan Abbasov Allahdan şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayaraq fikirlərinə əlavə edir: "Mən Bakıya gələndə çox çətinliklərlə üzləşdik, lakin sonradan dövlətimiz bizim üçün burada gözəl şərait yaratdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad etdi".

* * *

"Otuz ildən sonra doğma yurdumuza qayıtdığımız üçün çox şadıq. Füzulidən çıxanda 13 yaşım var idi. İndi isə doğma yurduma qayıdıram. Bu gözəl hissləri sözlə ifadə etmək çox çətindir", - 30 ildən sonra ata-baba yurduna qayıdan Füzuli sakini Mirkərim Yaqubov sevincini bizimlə bölüşür: "Bakıya gələrkən çox çətin günlər keçirdik. O anları xatırlamaq məni kövrəldir. Nəhayət Füzulimə qayıdıram. Dədə-baba yurdumun inkişafı naminə qurmaq, yaratmaq lazımdır. Gözəl diyarımı yenidən dirçəltmək üçün əlimdən gələni edəcəyəm. Doğma torpaqlara çatanda ilk olaraq qohumlarımın qəbirlərini ziyarət etməyə çalışacağam. Bizə bu xoşbəxtliyi bəxş edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımı bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı arzu edirəm".



# Vətən sevgisinin gücü

Hazırda biz elə bir dövrdə yaşayırıq ki, qloballaşma sərhədləri ortadan götürür, kommunikasiyaların inkişafı, texnoloji möcüzələr məsafələri azaldır, yaşadığımız dünyanın əslində nə qədər kiçik olduğunu hər birimizə anladır. Qloballaşma ölkələri, xalqları, mədəniyyətləri bir-birinə yaxınlaşdırır. Dünyanın hər birimizin ümumi evimiz olması həqiqətini və onun gələcəyinə görə birgə məsuliyyət öhdəliyimizi hər addımda hiss etdirir.

Getdikcə daha aydın şəkildə görürük ki, Yer planetinin hansı qütbündə yaşamasından asılı olmayaraq eyni dəyərləri paylaşan, həyati missiyasını dərk edib sülhə, inkişafa, başqaları üçün fayda yaratmağa çalışan, bəşəriyyətə kiçik də olsa, müəyyən töhfə verməyə can atan insanlar arasında heç bir fərq yoxdur. Hamımız eyni dünyanın sakinləriyik.

Amma orası da var ki, dünya hər birimiz üçün doğulub boya-başa çatdığımız məkandan başlanır. Planetimizdəki milyardlarla insan sırasında bizi özünəməxsus edən cəhətləri doğma yurdumuz, aid olduğumuz mədəniyyətin təkrarsızlığı qazandırır. Dünyanın hansı səmtində oluruqsa olaq, hər dəfə adı çəkiləndə qəlbimiz sevgi və qürurla döyünən, özümüzü adı ilə, ona bağlılığımızla güclü və əmin sandığımız bir Vətən var. O bizim milli-mənəvi varlığımızı qoruyur, bizi güclü edir. Ona görə də vətənpərvərlik hissi insanlar üçün heç zaman öz təsir qüvvəsini itirməyəcək.

## Milli ruhun gücü

Vətənpərvərlik sonradan qazanılmış keyfiyyət deyil, o, hər bir insanın ruhundadır. Vətənpərvərlik tərbiyəsi bu hissi düzgün yönəldir, vətənə məhəbbət ruhunun gücü ilə insanları ali məqsədlər ətrafında səfərbər edir, doğma torpaq, yurd qarşısındakı məsuliyyətimizi düzgün müəyyənləşdirir. Ölkənin, cəmiyyətin qazandığı bütün uğurlar insanların vətənpərvərlik ruhundan, bu ruhun diktəsindən, Vətənin rifahı üçün bacardıqları nələrisə etmək ehtiyacından gəlir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə, xalqımıza qazandırdığı çox nailiyyətlər var. Bu nailiyyətlər sırasında ən mühümü dövlət rəhbərimizin yetişdirdiyi vətənpərvər nəsildir. Ümummilli Lider Heydər Əliyevin mənəvi irsinə sadiqlik nümunəsi kimi Ulu Öndərin milli dövlətçilik fəlsəfəsini bu sahədə də uğurla davam etdirərək Azərbaycan Prezidenti Vətənə bütün canı, ruhu ilə bağlı olan güclü bir nəsil formalaşdırdı. Onlar dövlətimizə böyük uğurlar qazandırdı. Müstəqil Azərbaycan dövlətinin adını dünyada ucaltdı. Bu nəsil torpaqlarımızı işğaldan azad etdi, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında, onun əmri ilə son bir neçə əsrdə ilk dəfə olaraq Azərbaycanın tarixi torpaqlarını düşməndən geri almağı bacardı. Üçrəngli bayrağımızı azad yurdlarımızda dalğalandırdı.

Azərbaycanın vətənpərvər gəncliyi bu gün də bərpa-quruculuq tədbirlərində fəal iştirakı ilə Qarabağa, Şərqi Zəngəzura həyat gətirir, bu torpaqları inkişaf axarına qovuşdurur. Azərbaycan gəncliyi bu gün ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir. Ən müxtəlif arenalarda - mədəniyyətdə, elmdə, təhsildə, idmanda və s. adımızı zirvələrə yüksəldir, Vətənə nailiyyətlər qazandırır.

Bütün bunlar illər əvvəl bu kəlmələri böyük əminliklə dilə gətirmiş Ulu Öndər Heydər Əliyevin sarsılmaz inamının təntənəsidir: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".

## Ana yurda bağlılıq

Aqillər deyirdilər ki, gənc nəslin Vətəni sevməsi üçün qeyri-adi nələrsə etməyə ehtiyac yoxdur, siz Azərbaycanı onlara yaxşı tanıdın, onlar Vətəni özləri sevəcəklər.

Azərbaycan Prezidentinin vətənpərvərlik tərbiyəsinin gücü də məhz bundadır. Dövlət rəhbərimiz ölkəmizin hərtərəfli inkişafı istiqamətində həyata keçirdiyi işlərlə Azərbaycanın nə qədər böyük tarixə, zəngin mədəniyyətə, görkəmli şəxsiyyətlərə, qədimlərdə olduğu kimi müasir dünyamız üçün də böyük önəmə, yüksək potensiala malik bir ölkə olduğunu gənc nəslə göstərir. Azərbaycanı onlara daha yaxından tanıdır. Azərbaycan Prezidenti insanlarımıza, xüsusilə gənclərimizə Vətən, vətəndaşlıq düşüncəsi aşılayır. Vətənin keçmişi, bu günü və gələcəyi, dəyərləri qarşısında ictimai məsuliyyət hissi formalaşdırır. Ən mühümü isə Prezident İlham Əliyev özü Azərbaycan gəncliyinə ən böyük vətənpərvərlik nümunəsi göstərir. Vətən naminə fədakar fəaliyyəti, Azərbaycan maraqlarını hər yerdə, hər zaman qətiyyətlə qoruması, dəmir iradəsi, milli-mənəvi dəyərlərimizə bağlılığı ilə gənc nəsil üçün böyük bir nümunə yaradır.

Prezident İlham Əliyev Azərbaycana qazandırdığı nailiyyətlərlə göstərir ki, Vətəni sevmək, vətənpərvərlik sadəcə sözdə deyil, real əməllərdədir. Bu sevgini konkret işlərlə ifadə etməkdədir. Vətənin inkişafına, onun insanlarının rifahına nələrsə töhfə verməkdədir. Məşğul olduğun işi vicdanla görməkdədir. Azərbaycan maraqlarına, milli dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirməkdədir. Hər gün özünün və cəmiyyətinin inkişafı barədə düşünərək buna can atmaqdadır. Müasir dünyamızın bilik və bacarıqlarına yiyələnməkdə, eyni zamanda tarixi ənənələrə sahib çıxmaqda, milli ruhu ziyanlı təsirlərdən qorumaqda, mənəvi əmanətləri, bu Vətənin ən gözəl cəhətlərini nəsillərdən-nəsillərə ötürməkdədir.

Prezident İlham Əliyev bu xüsusda bildirir: "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm".

## Müqəddəs borc

Azərbaycan Prezidenti üçün vətənpərvərlik xalqın milli birliyinin rəhnidir. Tarixən müxtəlif xalqların təmsilçilərinin bir ailənin üzvləri kimi mehriban şəraitdə yaşadıqları, yüksək tolerantlıq ənənələrinə, fərqli mədəniyyətlərə hörmət ruhuna malik Azərbaycanda vətənpərvərlik xalqımızın, dövlətimizin vahid maraqlarının müdafiəsi yönündə sarsılmaz birliyi təmin edən möhkəm bünövrədir. Ümummilli Liderin irəli sürdüyü və bu gün ölkə rəhbərinin daha da inkişaf etdirdiyi azərbaycançılıq ideologiyasında əsl vətənpərvərliyin dəqiq formulu müəyyənləşib. Bu, dünyanın hansı səmtində yaşamasından, etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq özünü Azərbaycana - tarixi vətənə bağlı sanan, Vətənin mənafeləri işığında səfərbər edən bütün həmvətənlərimizi birləşdirmiş qırılmaz bağdır.

Elə azərbaycançılıq ideologiyasının əsasını da bütün dünya azərbaycanlılarının milli vətənpərvərliyi təşkil edir. Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların davam etdiyi günlərdə Azərbaycan gəncləri bu hissin gücü ilə axın-axın orduya könüllü yazılmaq üçün müraciət edirdilər. Sıldırım qayalardan kəndirlə dırmaşaraq yüngül silahlarla düşmənin tankının-topunun üzərinə atılırdılar. Min illər sonra da bütün dünyanın hər zaman heyrətlə xatırlayacağı, xarici ölkələrin hərbi məktəblərinin dərsliklərinə belə düşmüş əsl qəhrəmanlıq dastanı yazırdılar. Azərbaycanın haqq savaşında bütün dünya azərbaycanlıları Vətənin zəfəri üçün əllərindən gələni etməyə çalışır, o cümlədən informasiya savaşında ölkəmizin qalibiyyətini təmin edirdilər. Bu vətənpərvərliyimizin gücüdür və bu güc getdikcə daha da artır, sarsılmaz olur.

Azərbaycan Prezidentinin təlqin etdiyi vətənpərvərlik bütün bəşəriyyətə sevgidir. Fərqli mədəniyyətlərə hörmətdir. İnsanlar arasında heç bir ayrı-seçkilik qoymamaq, insanları etnik, irqi, dini mənsibiyyətlərinə, dünyaya gəldikləri coğrafiyalara görə ayrı-seçkiliyə məruz qoymamaqdır. İnsana insan kimi dəyər verməkdir. Dünyanın harasında olursansa ol, haqqı, ədaləti qorumaqdır, yalanın deyil, həqiqətin, zorakılığın deyil, qanunçuluğun, sivil münasibətlərin yanında olmaqdır. Prezident İlham Əliyevin aşıladığı vətənpərvərlik hissi məsuliyyətli davranışdır, özünə və başqalarına hörmət etmək, hər sözünün, davranışının məsuliyyətini bilməkdir. Dayanıqlı inkişaf, ali məqsədlərin reallaşması naminə birgə əməkdaşlıqdır. Mövcud imkanları insanların və ümumilikdə bəşəriyyətin xoşbəxtliyi uğrunda gerçəkliyə çevirməyə can atmaqdır.

Bu mənada Azərbaycanda aparılan, bütün dünya azərbaycanlıları arasında həyata keçirilən vətənpərvərlik tərbiyəsi heç bir ölkənin, xalqın maraqlarına qarşı yönəlməyib. Əksinə, azərbaycanlı vətənpərvərliyi hər kəsin maraqlarına cavab verən, hər kəsin haqlarına sayğı aşılayan vətənpərvərlikdir. Cəmiyyətimizdə aparılan vətənpərvərlik tərbiyəsi işinə töhfə vermək, xüsusilə gənc nəsli bu ruhda yetişdirmək, ən mühümü isə öz davranışlarımızla, şəxsi nümunəmizlə əsl vətənpərvərlik örnəyi yaratmaq hər birimizin müqəddəs borcudur. Bu borcumuza əməl etdikcə daha da böyük oluruq. Çünki Vətən onu uca tutan hər kəsi min qat ucaldır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, sentyabrın 15-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ağcabədi şəhərində yerləşən Yeni Azərbaycan Partiyasının Ağcabədi rayon təşkilatının inzibati binasında vətəndaşları qəbul edib.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, mineral xammal, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

# "Azərişıq" ASC-nin sədri Göygöl rayonunda vətəndaşları qəbul edib



Cənab Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov sentyabrın 15-i saat 10:00-da Göygöldə Göygöl və Daşkəsən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Göygöl rayonundakı abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Qubada yaşayan dağ yəhudiləri Roş Ha-Şana bayramını qeyd edirlər

Qubadakı Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri Roş Ha-Şana bayramını qeyd edirlər. Qəsəbə sakinləri yəhudi təqviminə görə 5784-cü ilin gəlişini qarşılayırlar.



Roş Ha-Şana bayramının vaxtı təqvimə görə dəyişsə də, hər il əsasən sentyabr ayına təsadüf edir. Bu ilin təqviminə əsasən 15-17 sentyabr bayram günləridir. Roş Ha-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər tərəfindən təntənəli şəkildə keçirilir.

Quba Rayon İcra Hakimiyyətinin Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Telman Muxaylov AZƏRTAC-a deyib ki, bayram günlərində qəsəbədə hər kəs öz ailəsi, doğmaları ilə bu bayramı qeyd edir. Yeni ilin ilk 10 günündə yəhudilər müxtəlif dini ayinləri yerinə yetirir, tövbə edir, müqəddəs "Tövrat"ı oxuyurlar. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs "Yom Kipur" gününü qeyd edirlər. Qırmızı qəsəbə sakinləri yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bayram günündə dualar oxuyur, ehtiyacı olanlara əl tutur, Tanrıdan günahlarının bağışlanmasını diləyirlər.

Bayram süfrəsində dadlı təamlarla yanaşı, dəyirmi doğranmış yerkökü, balıq başı, nar, alma və balın olması vacibdir. Dəyirmi formada doğranmış yerkökü qızıl pulu, var-dövləti, süfrədəki balıq başı ailə başçısını, ailənin böyüyünü simvolizə edir. Bayram təamlarını dadarkən alma bala batırılaraq yeyilir ki, ilboyu ailədə şirinlik, isti münasibət hökm sürsün. Dənələnmiş nar isə ailənin böyüməsinə, yeni doğulacaq uşaqlara işarədir.

Dağ yəhudilərinin Qubada məskunlaşması XVIII əsrin ortalarına təsadüf edir. Fətəli xanın Quba xanlığına rəhbərlik etdiyi dövrlərdə ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub. Uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. "Qafqazın Yerusəlimi" adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Burada yəhudilərin dini icması, milli mədəniyyət mərkəzi və Dağ Yəhudiləri muzeyi fəaliyyət göstərir.

# Qanunsuz erməni silahlıları yeni səngər yolları qazmağa cəhd göstəriblər

Sentyabrın 15-i saat 09:30-da Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Azərbaycanlı qadın hərbçi BMT tərəfindən təltif olunub




Azərbaycanlı qadın hərbçi Lətifə Rüstəmova BMT-nin sülhməramlı missiyasındakı nümunəvi xidmətinə görə dünya təşkilatı tərəfindən təltif olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın BMT yanında daimi nümayəndəliyi sosial şəbəkədə bildirib.

"Cənubi Sudanda BMT missiyasında göstərdiyi nümunəvi hərbi xidmətə görə həm BMT medalı, həm də tərifnamə ilə təltif edilmiş ilk qadın sülhməramlı mayor Lətifə Rüstəmova ilə biz ikiqat fəxr edirik", - daimi nümayəndəlik qeyd edib.

# Hərbi qulluqçumuz silahla davranış qaydalarının pozulması nəticəsində həlak olub

Azərbaycan Ordusunun hərbi qulluqçusu Rüfət Xanəhməd oğlu Ağayev silahla davranış qaydalarının kobud şəkildə pozulması nəticəsində açılan atəşdən həlak olub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, faktla bağlı araşdırma aparılır.

# XİN: "ABŞ Dövlət katibinin köməkçisinin səsləndirdiyi fikirlər, sadəcə, məyusluq doğurur"

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimin səsləndirdiyi, ümumiyyətlə, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqları əks etdirməyən fikirləri, sadəcə, məyusluq doğurur.

AZƏRTAC xəbər verir ki, bu sözlər Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin ABŞ Senatında Yuri Kimin iştirakı ilə keçirilmiş dinləmələrdə səsləndirilən iddialara dair şərhində yer alıb. A.Hacızadə bildirib ki, ilk növbədə, qeyd olunan dinləmələrin təşəbbüskarının və təşkilatçısının ölkəmizə qarşı ənənəvi düşmən mövqeyi ilə seçilən ermənipərəst senator Robert Menendezin olduğu məlumdur. Sözügedən senatora qarşı korrupsiya ittihamlarının mövcud olduğu və istintaq prosesinin aparıldığı bir dövrdə bu şəxsin hələ də erməni diasporunun radikal nümayəndələrinin saxta iddialarını əsas götürməklə Azərbaycana qarşı fəaliyyətlə məşğul olması onun üçün siyasi etik qaydaların yad məfhum olduğunu növbəti dəfə sübut edir.

Bu fikirlər 2023-cü il sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Dövlət katibi Entoni Blinken arasında təmaslar zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni vaxtda istifadə məsələsində razılaşma ilə ziddiyyət təşkil etməklə yanaşı, təəssüf ki, özündə Ermənistanın Azərbaycana qarşı bütün dünyada qarayaxma kampaniyasının elementlərini ehtiva edir. ABŞ tərəfinin də vasitəçiliyi ilə icra edilməsi nəzərdə tutulan bu razılaşmanın Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən pozulması, "blokada" və "humanitar vəziyyət" ilə bağlı iddiaların əsassız olduğu ABŞ tərəfinə yaxşı məlumdur.

"Ermənistan ilə Azərbaycan arasında müharibənin bitmədiyini iddia edən xanım Kimə xatırlatmaq istərdik ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra tərəfimizdən hər iki dövlətin ərazi bütövlüyü və suverenliyi əsasında qarşı tərəfə sülh təklif olunub. Azərbaycanın təşəbbüsü ilə başlayan, beynəlxalq tərəfdaşların, o cümlədən ABŞ-nin dəstəyi ilə sülh müqaviləsi ətrafında ikitərəfli danışıqlar prosesinin mövcudluğu postmüharibə və postmünaqişə dövrünün təməl prosesidir".

Təəssüf ki, müharibə və münaqişə bitsə də, bitməyən və bölgədə sülhə, sabitliyə əngəl törədən Ermənistanın 30 ilə yaxın işğal dövründə olduğu kimi, yenə də danışıqları imitasiya etməsi və davamlı hərbi-siyasi təxribatlar ilə məşğul olmasıdır. Bu baxımdan 30 illik münaqişədən sonra yaranmış tarixi fürsətin danılması yerinə, Ermənistanın törətdiyi təxribatların dayandırılmasının, ən əsası isə, Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələrinin ərazilərimizi dərhal tərk etməsinin tələb olunmasının vacib və ədalətli olduğuna inanır, ABŞ tərəfini bu mövqedən çıxış etməyə çağırırıq.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə bağlı "Dağlıq Qarabağın erməni xalqı"nın hüquq və təhlükəsizliklərinin sülh müqaviləsində öz əksini tapmasına istinad edilməsi, özündə Ermənistanın məqsədyönlü şəkildə ərazilərimizdə separatizmi təşviq məqsədilə istifadə etdiyi terminologiyanı ehtiva etməklə ərazi bütövlüyümüz və suverenliyimizə ziddir. Eyni zamanda bu istinad Ermənistanın etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində həmin bölgədən didərgin düşən azərbaycanlıların da hüquqlarına hörmətsizlikdir. Hazırda Qarabağ bölgəsində yaşayan erməni sakinlərin heç də həmin bölgənin əhalisinin bütün seqmentlərini təmsil etmədiyini qarşı tərəfə xatırlatmaq istərdik.

"Hərbi hücum" iddiası ilə bağlı isə Ermənistandan fərqli olaraq, Azərbaycanın heç vaxt mülki əhaliyə qarşı güc tətbiq etmədiyini vurğulayaraq, əksinə, milli səviyyədə erməni sakinlərimizin cəmiyyətimizə reinteqrasiyası sahəsində tədbirlərin görüldüyü, bu istiqamətdə Ermənistan və onun qondarma qurumu tərəfindən törədilən maneələrə baxmayaraq, qərarlı olduğumuzu bildiririk. Reinteqrasiya prosesi ölkəmizin daxili məsələsidir və daxili işlərimizə müdaxilə qəbulolunmazdır.

ABŞ tərəfinin timsalında beynəlxalq ictimaiyyətə, Ermənistanın qarayaxma kampaniyasına uymayaraq, bölgədə qeyri-sabitliyə töhfə verən bu kimi addımların bir parçası olmamağı tövsiyə edirik", - deyə Azərbaycan XİN-in rəsmisi vurğulayıb.

# Xuntanın ömrünə az qalıb

**Zəfərdən dərhal sonra Azərbaycan Ermənistan tərəfinə beynəlxalq hüququn norma və prinsiplərinə söykənən beş baza təklifi irəli sürüb və sülh müqaviləsinin yalnız bu şərtlər yerinə yetiriləcəyi halda mümkün olacağını bildirib.**



Həmçinin 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri layiqincə və zamanından öncə təhvil verərək sülh müqaviləsinin tezliklə bağlanmasında maraqlı olduğunu nümayiş etdirdi. Bakı bununla paralel olaraq Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində praktiki fəaliyyətə başladı.

## Ermənistan siyasi oyunbazlıqla məşğuldur

Lakin Ermənistan kapitulyasiya aktına rəsmən imza atdığı vaxtdan üç ilə yaxın müddət keçmişinə baxmayaraq, üzərinə düşən öhdəlikləri yerinə yetirməkdən yayınıb və hazırda da siyasi oyunbazlıqlarla məşğuldur. Üçtərəfli görüşlərdə sözdə sülhə razı olduğunu bildirən İrəvan, Azərbaycana qarşı istər siyasi, istər hərbi təxribatlar törədir, öz silahlı tör-töküntülərini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ ərazisindən çıxarmır. Hələ üstəlik, bu il sentyabrın 9-da Xankəndidə keçirilən qondarma "prezident seçkiləri"nə açıq dəstək göstərir.

Bəs, 44 günlük müharibədə siyasi, diplomatik, hərbi sahədə faktiki olaraq Azərbaycan tərəfindən darmadağın edilən kapitulyant ölkə bu təxribatçı əməllərlə məşğul olmaq cürətini haradan alır? Cavab çox sadədir: bəzi riyakar xarici ölkə və qurumların erməni lobbisinin təsiri ilə İrəvana və separatçı quruma havadarlıq etmələri marionet ölkəni Azərbaycana qarşı ərazi iddiası güdmək kimi sərsəm xəyallara kökləyir. Xankəndidəki xuntaçıları, yumşaq ifadə etsək, qudurdur.

Buna görədir ki, separatçılar Laçın yolunda sərhəd-buraxılış məntəqəsi qurulmasını "blokada" adlandırırlar, Xankəndidəki sadə ermənilərin adından sui-istifadə edərək beynəlxalq aləmə yalan nağıllar danışırlar.

Reallıq isə bundan ibarətdir ki, Laçın yolu heç zaman bağlanmayıb və hazırda da mülki ermənilərin keçidi üçün açıqdır. O ki qaldı Xankəndidəki aclıq şousuna, Azərbaycan separatçıların bu məzhəkəsinə də son qoydu. Ölkəmiz Laçın yoluna alternativ olaraq Xankəndi-Ağdam yolunu təklif etdi və Rusiya Qırmızı Xaç Cəmiyyəti tərəfindən göndərilən yük avtomobili Azərbaycanla əlaqələndirilmiş şəkildə Ağdam-Xankəndi yolu ilə keçərək Qarabağın erməniəsilli sakinlərinə humanitar yükləri çatdırdı.

## Hərbi xunta reinteqrasiyaya əngəl törədir

Bununla da Azərbaycan bir daha sübut etdi ki, Bakı hər zaman sülh, barışıq tərəfdarıdır və onun siyasətinin əsasını humanizm prinsipləri təşkil edir.

Ümumiyyətlə, Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində ardıcıl addımlar atır.

Qarabağdakı erməni sakinlərlə dialoqun həyata keçirilməsi istiqamətində ilk praktik addım isə bu il martın 1-də gerçəkləşdirilib. Həmin gün Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüş zamanı onların ölkəmizin Konstitusiyası və qanunları çərçivəsində Azərbaycana reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb. Lakin separatçı qüvvələr Qarabağda yaşayan sadə erməniləri girovluqlarında saxlayaraq onların reinteqrasiyasına mane olurlar, yalançı şoular düzənləyərək beynəlxalq medianın bəzi simalarını da mənfur niyyətlərinə alət edir, dünyaya yalan məlumatlar yayırlar.

Məkrli ermənilərin məqsədi "humanitar" təzyiq göstərərək Azərbaycanın suveren ərazilərini "boz zona"ya çevirməkdir.

## Xankəndi, Xocalı, Xocavənd sakinləri yurdlarına qayıtmaq istəyirlər

Hərbi xuntanın və Ermənistanın xarici himayədarlarının dəstəyi ilə "boz zona"ya çevirmək istədiyi həmin ərazilərin sakinləri 30 ildir ki yurdlarından didərgin salınıb.

Qarabağ münaqişəsinin 3 ilə yaxındır ki, başa çatmasına baxmayaraq, həmin ərazilərdən didərgin düşmüş məcburi köçkünlərimiz öz dədə-baba torpaqlarına qayıda bilmirlər.

Ermənistanın silahlı tör-töküntülərini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ bölgəsindən çıxarmaması, separatçıların qondarma qurum yaradaraq yolların açılmasına əngəl yaratmaları və digər təxribatları Xankəndinin, Xocalının, Xocavəndin əzəli sakinlərinin doğma yurdlarına qayıdışlarına imkan vermir.

Bütün bu qanunsuzluqlara görə, sentyabrın 14-də Azərbaycanın Xankəndi şəhəri, Xocalı, Xocavənd və Qarabağ bölgəsinin hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan digər rayonlarından olan keçmiş məcburi köçkünlər dünya ictimaiyyətinə müraciət ünvanlayaraq bildiriblər ki, "boz zona" həmişəlik qala bilməz: "Bu dözülməzdir ki, biz hələ də evlərimizə qayıda bilmirik!"

Məcburi köçkünlər dünya ictimaiyyətinə, Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı addımlara son qoymağı tələb etmələri, onların öz evlərinə qayıtmaq hüquqlarının təmin olunmasına təsir göstərmələri ilə bağlı çağırış ediblər.

Bu faktdır ki, Ermənistan hökuməti vaxtilə Qərbi Azərbaycandan qovulan üç yüz min azərbaycanlı soydaşımızın öz yurdlarına qayıdışı ilə bağlı heç bir iş görmək istəmir.

## Beynəlxalq ictimaiyyət erməni yalanlarına uymamalıdır

İndi Xankəndidəki 10-15 min erməninin guya acından ölməsini dünyəvi faciə kimi təqdim edən Fransa, digər qərəzli ölkə və qurumlar Azərbaycan reallıqlarını görməzdən, eşitməzdən gəlirlər.

Monoetnik ölkə olan Ermənistanın təkcə 1988-ci ildə öz ərazisindən 300 min azərbaycanlını qovmasına, 1990-cı illərin əvvəllərində Azərbaycanın 20 faiz torpağını işğal etməsinə, bu yerlərin bir milyona yaxın sakinini didərgin salmasına, xalqımıza qarşı soyqırımları törətməsinə bu riyakar ölkə və qurumlardan indiyə qədər heç bir reaksiya olmayıb. Təcavüzkar ölkəyə hansısa təzyiq, sanksiya tətbiq etmək kimi fəaliyyət göstərilməyib.

Eyni zamanda erməni lobbisinin təsiri altında olan bəzi beynəlxalq qurum və media orqanları Azərbaycanın multikultural və tolerant ölkə olmasını, min illərdir ki, burada müxtəlif xalqların və azlıqların nümayəndələrinin həmrəylik, barış içərisində yaşadıqlarını bilməzdən gəlirlər. Onlar ikili yanaşma sərgiləyərək öz mənafeləri naminə erməni uydurmalarına, yalanlarına inanmağı üstün tuturlar.

Amma doğru yol birdir. Azərbaycanın iki ölkə arasında normallaşmaya nail olunması üçün haqlı və ədalətli mövqe nümayiş etdirdiyi, eyni zamanda Qarabağda yaşayan erməniəsilli sakinlərin reinteqrasiyasında qərarlı olduğu gün kimi ortadadır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İcma: "ABŞ hökuməti Ermənistanın yalanlarına uymamalı, Azərbaycanın daxili işlərinə müdaxilə etməməlidir"

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin vəzifələrini icra edən Yuri Kim erməni lobbisi ilə korrupsiya əlaqələrinə görə - hazırda ABŞ Federal Təhqiqatlar Bürosunun istintaqı altında olan senator Bob Menendezin 2023-cü il sentyabrın 14-də ABŞ Senatında təşkil etdiyi dinləmələrdə anti-Azərbaycan bəyanat verib. ABŞ rəsmisi Laçın yolunun dərhal açılmasını tələb edib və "Dağlıq Qarabağın əhalisinə qarşı" güc tətbiqini qəbul etməyəcəklərini bildirib.

AZƏRTAC xəbər verir ki, Qərbi Azərbaycan İcması bununla bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunub: "Əvvəla, ABŞ hökumətinə yaxşı məlumdur ki, Laçın yolu bağlı deyil. Bu yoldan Azərbaycanın qanunları çərçivəsində istifadəsinə əngəl törədən Azərbaycana qarşı ərazi iddiasında olan Ermənistan hökuməti və onun Azərbaycanın Qarabağ bölgəsində hələ də dəstəklədiyi qanunsuz rejimin tör-töküntüləridir.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinə qarşı, əslində, mövcud olmayan təhlükə ilə bağlı Y.Kimin əsassız iddiası ilə bağlı soruşmaq istərdik ki, Ermənistanın öz ərazisindən 300 min, vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən 700 min azərbaycanlını qovmasına, Azərbaycan ərazilərini işğal etməsinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrini qulaqardına vurmasına, 20 mindən çox azərbaycanlı mülki şəxsi öldürməsinə, 900-dən artıq Azərbaycan yaşayış məskənini viran qoymasına, Azərbaycan ərazilərinin bir hissəsini çirkləndirməsinə, əsir və girov götürdüyü 4000-dən çox azərbaycanlının taleyinə aydınlıq gətirməməsinə ABŞ hökuməti nə üçün biganə qalıb?

Azərbaycan və Ermənistan arasında münasibətlərin və yerdə vəziyyətin bütün incəliklərindən xəbərdar olan ABŞ hökumətinin azərbaycanlılara qarşı törədilmiş bu qədər haqsızlığa göz yumması, Ermənistanın əsassız iddialarını dəstəkləməsi ABŞ-nin nə "insan haqlarının qlobal müdafiəçisi" kimi, nə də Azərbaycan və Ermənistan arasında sülhü təşviq edən tərəfdaş kimi rollarına uyğun gəlmir.

Sülhdən, ədalətdən dəm vuran ABŞ hələ də Ermənistandan öz ordusunun qalıqlarını Azərbaycan ərazilərindən çıxarmağı, qanunsuz erməni silahlı dəstələrinin tərk-silah edilməsini tələb etmir. ABŞ-nin postsovet məkanında digər ölkələrin ərazi bütövlüyünü və suverenliyini qeyd-şərtsiz tanıdığı, separatizmə qarşı çıxdığı bir şəraitdə, Azərbaycana gəldikdə yenə də nala-mıxa vurması qəbuledilməzdir. Y.Kimin əmr şəklində danışıq tonu da yersizdir. Dövlət Departamentinin rəsmisi ünvanları səhv salıb. Y.Kimə xatırladırıq ki, ABŞ siyasətçiləri, diplomatları yeri gəldi-gəlmədi hər yerdə Amerikanın suverenliyi məsələsini qabardırlar. Azərbaycanın suverenliyi heç bir ölkənin, o cümlədən xanım Kimin təmsil etdiyi ABŞ-nin suverenliyindən əskik deyil.

ABŞ hökuməti Ermənistanın yalanlarına uymamalı, insan hüquqlarının müdafiəsi məsələsində etnik ayrı-seçkiliyə yol verməməli, Azərbaycanın daxili işlərinə müdaxilə etməməli və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına dəstək verməlidir".

# Azərbaycan və Ermənistan ekspertləri Tbilisidə görüşüblər

Sentyabrın 15-də Gürcüstanın paytaxtı Tbilisidə Azərbaycan və Ermənistandan olan ekspert heyətləri arasında görüş keçirilib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən (BMTM) AZƏRTAC-a verilən məlumata görə, heyətlərə Azərbaycan tərəfdən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev, Ermənistan tərəfdən isə Qafqaz Araşdırmaları İnstitutunun direktoru Aleksandr İskəndəryan rəhbərlik edib.

Tərəflər iki ölkə arasındakı məsələləri müzakirə ediblər.

# Qeyri-qanuni rejimin tərk-silah olunması mütləqdir

## Ermənilərin "boz zona"ya çevirmək istədikləri ərazilərimizdə də tezliklə üçrəngli bayrağımız dalğalanacaqdır

**Ermənilər hər gün sərhədlərimizdə silahlı təxribat törədib gərginlik yaratmaqla müharibə qığılcımını alovlandırmağa cəhd edirlər. Erməni politoloqlar Paşinyanın müharibə cəhdlərini onun Rusiyadan xilas olmaq arzusu ilə izah edirlər. Erməni siyasətçilərinin fikirincə, indi ona müharibə Rusiyadan "birdəfəlik qurtarmaq" üçün lazımdır.**

Nikol düşünür ki, əgər müharibə olarsa, ölkəsinin təhlükəsizliyini daha ciddi şəkildə təmin etmək üçün "etibarlı və güclü" dövlətlərin hərbi kontingentini Yerevana dəvət edə bilər. Necə ki, Fransanın jandarm qüvvələrinin sabiq əməkdaşlarını Aİ-nin müşahidə missiyası adı altında Ermənistan-Azərbaycan sərhədinə yerləşdirib ABŞ-nin hərbi qüvvələri ilə birgə hərbi təlimlər keçir, hesab edir ki, onu himayə edən dövlətlərin silahlı qüvvələrini də ölkəsində yerləşdirmək onun haqqıdır. Elə bu məqsədlə də sülh müqaviləsini müxtəlif bəhanələrlə imzalamayıb vaxt qazanmağa çalışır. Separatçıları atəşkəsi pozmağa təhrik edir. Heç şübhəsiz ki, Nikolun oynadığı oyunun ssenarisi Qərbdə yazılır. Rejissorlar da Ermənistandan çox uzaqdadırlar. Sadəcə, ermənilər "böyük oyuna" aktyorluq edirlər.

Qərbin erməni sevgisinin arxasında nəyin durduğu məlumdur. Xüsusilə bu gün daha çox canfəşanlıq edən Fransanın niyyətinin Ermənistanın əli ilə Cənubi Qafqaza girmək cəhdini, burada gedən proseslərə nəzarət etmək istəyini görməmək mümkün deyil. Əslində Fransa Nikoldan yararlanaraq Cənubi Qafqazda Rusiyaya savaş elan edib.

Azərbaycan sülhpərvər dövlətdir. Sülh isə həyatdır. Ermənistan işğalçı dövlətdir. Dağıdıcıdır. Niyyəti də, əməlləri də qaradır. Ona görə də 30 il işğal altında saxladığı torpaqlarımızı qaranlığa qərq etmişdi. Yurdumuzda işıqlı nə vardırsa hamısını dağıdıb, yandırıb məhv etmişdi.

Azərbaycan torpaqlarını işğaldan azad edən kimi o yerləri yenidən nura qərq etdi. Yol saldı, işıq çəkdi... Xarabalıqların yerində cənnət yaratdı və bu proses sürətlə davam edir.



Yamanlığa yaxşılıq ər işidir. Azərbaycan ərlik edib Ermənistana sülh təklif etdi... İrihəcmli daşımalar üçün Ağdam-Xankəndi yolunu göstərdi. Dərhal da yolu beynəlxalq standartlara uyğun olaraq təmir edib işıq çəkdi. Amma qəlbi, ruhu, əməli qara insanlar sülhə gedən yolun qarşısını silahla kəsdilər. Unutdular ki, günəşin qabağını qara bulud ala bilər, amma onun işığının qarşısını kəsə bilməz.

Ermənistan və himayədarları hələ də qara niyyətlərindən əl çəkməyiblər. Azərbaycana siyasi təzyiq göstərib "sərbəst gediş-gəliş" üçün Laçın yolunu açdırmaq istəyirlər, Qarabağda yaşayan erməni icmasına "xüsusi status" tələb edirlər. Bu yoldan silah-sursatın, narkotik maddələrin qanunsuz daşınması məlum idi. Odur ki, dövlətimiz Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsini qurdu. Azərbaycan öz mövqeyində qətidir. Ərazisində hər hansı "boz zona"nın olmasına imkan verməyəcək, qanunsuzluğun, özbaşınalığın qarşısını alacaq.

Hər bir müstəqil dövlətin sərhədi, sərhədində nəzarət-buraxılış məntəqələri var. Dövlətlərarası gediş-gəliş qanunla tənzimlənir. Əksər dövlətlərdə gediş-gəliş üçün qarşılıqlı viza sistemi tətbiq olunur. Azərbaycanın öz sərhədində nəzarət-buraxılış məntəqəsini yaratması nədən Fransanın və digər dövlətlərin rahatçılığını bu qədər pozur?

Bu gün Azərbaycanın yaratdığı Laçın sərhəd-nəzarət buraxılış məntəqəsi sadə, cinayətdə əli olmayan ermənilər üçün açıqdır. Hər gün onlarla mülki ermənilərin maneəsiz olaraq Yerevana gediş-gəlişini bilməyən yoxdur.

Azərbaycan erməni sakinlərinin reinteqrasiyası istiqamətində müvafiq zəruri tədbirlər həyata keçirməkdə qərarlıdır, bu və digər məsələlərin müzakirəsi məqsədilə erməni sakinlərə ünvanlanmış dəvət hələ də qüvvədədir. Qarabağda yaşayan erməni icmasına, xüsusi status tələb edənlərə xatırladırıq ki, Azərbaycan Konstitusiyasının 12-ci maddəsinə əsasən, Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. 25-ci maddə bərabərlik hüququnu təsbit edib, dövlətin irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verdiyini vurğulayır. Başqa sözlə desək, Azərbaycan Qarabağ erməniləri ilə bərabərlik prinsipindən və beynəlxalq hüquq konvensiyalarından çıxış edərək humanist rəftar edəcəyini məsuliyyətlə bəyan edib. Ermənilər bundan sonra da Azərbaycanın reinteqrasiya haqqında təkliflərini qəbul etməsələr, separatçılar Azərbaycan qanunlarına əməl etməyə qarşı çıxsalar, "boz zona"nın tezliklə üçrəngli bayrağımızla bəzəyəcəyimizə, Xankəndini də gülüstana döndərəcəyimizə heç kim şübhə etməməlidir. Bu ərazidəki qanunsuz rejim isə mütləq buraxılacaqdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Azərişıq" ASC Saray və Yaşmada yenidənqurma işlərini davam etdirir

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC ölkənin bütün regionlarında köhnə, yararsız elektrik şəbəkələrini yeniləyir. "Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yenidənqurma işləri Saray qəsəbəsi və Yeni Yaşmada da davam edir.

Saray qəsəbəsində yerləşən Köhnə kənd yaşayış massivində yeni evlərin tikilməsi və əhalinin sürətli artımı bu ərazidə abonentlərin fasiləsiz elektrik enerjisi ilə təminatını çətinləşdirmişdi. "Azərişıq" ASC problemin aradan qaldırılması yönündə yenidənqurma işləri aparır. "Azərişıq" ASC Yeni Yaşmada müəllimlər üçün ayrılan "Maarif" bağları adlanan ərazidə də abonentləri fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün işləri davam etdirir. Ərazidə bütün elektrik şəbəkəsi yenilənir, köhnə dayaqlar və elektrik xətləri yenisi ilə əvəzlənir. Abonentlər üçün yeni smart sayğaclar quraşdırılır.

Həm Saray qəsəbəsində Köhnə kənd adlanan ərazidə, həm də Yaşmada yenidənqurma işlərinin tezliklə yekunlaşması nəzərdə tutulub.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi *açıq tender elan edir*

**Neftçala şəhər E.Həbibov adına 4 nömrəli 720 şagird yerlik tam orta məktəbin tikintisi işlərinin satın alınması.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **20 oktyabr 2023-cü il saat 12:00-a,** tender təklifi və tender təklifinin bank təminatını **30 oktyabr 2023-cü il saat 12:00-a** qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **31 oktyabr 2023-cü il saat 12:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun struktur idarələrinə tələb olunan fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və etraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 sentyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 15.06.2023-cü il tarixdə elan edilmiş:**

- 110 kV-luq ikidövrəli "Cəbrayıl-Qubadlı EVX-nin bir dövrəsinin 110/35/10 kV-luq Laçın Şəhər YS"na giriş hissəsinin tikintisinin elektrikquraşdırma işləri;
- 110 kV-luq ikidövrəli "110/35/10 kV Qorçu YS - 110/35/10 kV-luq Laçın Şəhər YS" arası EVX-nin tikintisi işlərinin satın alınması üzrə açıq tender üsulu ilə keçirilən müsabiqələrdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Azərelektrik Tikinti Quraşdırma" MMC və "Elektrikquraşdırma" Müəssisəsi şirkətləri müsabiqələrin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanıb.

***Tender komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi *açıq tender elan edir*

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən Sumqayıt DOST Mərkəzinin tikintisinin aparılması və müxtəlif təchizat avadanlıqlarının satın alınması.

Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Açıq tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Sudabə Qocayeva (tel: 012 525-50-26 #9231)

**İştirak haqqı: Lot üzrə 2500 (iki min beş yüz ) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi.*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir).*
*4. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*5. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə mənfəət (gəlir) vergisinin bəyannaməsi (Dövlət Vergi Xidməti tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Arayış Dövlət Statistika Komitəsindən alınmalıdır və son hesabat ilinə olan vəziyyəti əks etdirməlidir. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*10. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (Rəhbər şəxsin təyin olunması barədə əmr və ya qərarın surəti PDF formatında yerləşdirilməlidir).*
*11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (Yüklülük arayışı satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*12. İddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Arayış Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmalı və satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır).*
*13. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması:*
- *iddiaçı tərəfindən müvafiq sahədə peşəkarlığın və təcrübənin mövcudluğu barədə təsdiqedici sənədlər, büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri (ödəniş və təhvil-təslim sənədləri ilə birlikdə) təqdim edilməlidir;*
- *iddiaçı ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədləri təqdim etməlidir. O cümlədən iddiaçı ilə qüvvədə olan əmək müqaviləsinə malik azı 1 nəfər sahə rəisi, inşaat mühəndisi, iş icraçısı, usta briqadir və topoqraf olmalıdır (ali təhsil barədə diplom, əmək kitabçası, əmək müqaviləsi bildirişi altsistemindən çıxarış, əməkdaşların müvafiq sahə üzrə azı 10 il ümumi və azı 5 il xüsusi iş təcrübəsi barədə müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *iddiaçının hesabında sərbəst vəsait və ya kredit imkanı ən azı 3000000,00 manat olmalıdır (Kredit xəttinin açılması barədə bank tərəfindən verilmiş arayışda bu satınalma predmeti üzrə layihənin yerinə yetirilməsi məqsədilə 3000000,00 manat vəsaitin konkret ayrılmasının mümkünlüyü barədə arayış verilməlidir);*
- *iddiaçının son 3 (üç) il (2020-2022) ərzində tikinti quraşdırma və əsaslı təmir işləri üzrə maliyyə dövriyyəsi azı 15 000 000,00 (on beş milyon) manat olmalıdır;*
- *iddiaçı son 3 (üç) il ərzində sahəsi minimim 5000 m2 olan 1 tikinti obyektinin tikintisini və əsaslı təmir işlərini həyata keçirməlidir. Həyata keçirilmiş əsaslı təmir işləri müasir üslubda müxtəlif dizayn elemetlərini (laminat, mərmər üzləmə və sair) özündə əks etdirməlidir (Müvafiq müqavilə, layihə və işin yekun nəticələrini əks etdirən fotogörüntülər, həmçinin rəylər təqdim edilməlidir);*
- *iddiaçı maddi texniki bazası, o cümlədən icarəyə götürdüyü avadanlıqlar (Ekskavator, traktor, yük maşınları, kranlar və s.) barədə geniş məlumat (Müvafiq təsdiqedici sənədlər ilə birlikdə) təqdim etməlidir.*

*14. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır (texniki tapşırıqda tələb olunan bütün sahələr üzrə).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Satınalma proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2023-cü il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.10.2023-cü il saat 11:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.10.2023-cü il saat 11:00-da** Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyində (Ünvan: Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, 86) açılacaqdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun struktur idarələrinə tələb olunan məişət avadanlıqlarının satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və etraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 sentyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5526
Sifariş 2332

Qiyməti 40 qəpik